AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 82

Bakı şəhəri

"05" sentyabr 2022

"Azərbaycan Aviasiya Qaydaları – Mülki aviasiyada uçuşların radiotexniki, rabitə təminatı və hava hərəkətinin avtomatlaşdırılmış idarəetmə sistemləri" adlı sənədə dəyişikliyin qüvvəyə minməsi barədə

Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və Uçuşların Təhlükəsizliyi üzrə Avropa Agentliyinin (EASA) rəhbər sənədlərə tətbiq edilən tələblərinə uyğunluğu təmin etmək məqsədilə "Azərbaycan Aviasiya Qaydaları – Mülki aviasiyada uçuşların radiotexniki, rabitə təminatı və hava hərəkətinin avtomatlaşdırılmış idarəetmə sistemləri" adlı sənədin 1-ci nəşrinə 3 nömrəli dəyişiklik işlənib hazırlanmışdır.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq,

əmr edirəm:

1. "Azərbaycan Aviasiya Qaydaları - Mülki aviasiyada uçuşların radiotexniki, rabitə təminatı və hava hərəkətinin avtomatlaşdırılmış idarəetmə sistemləri" sənədinin 1-ci nəşrinə 3 nömrəli dəyişiklik 2022-ci ilin 13 sentyabr tarixindən qüvvəyə minsin.
2. Sözügedən sənədin müvafiq tələblərinin şamil edildiyi aidiyyəti mülki aviasiya subyektləri dəyişikliyin 13 oktyabr 2022-ci il tarixindən tam tətbiqini təmin etsinlər.
3. Sənədin Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) və "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi"nin aidiyyəti mütəxəssisləri tərəfindən öyrənilməsi və icrası təşkil edilsin.
4. Sənəd DMAA-nın rəsmi internet saytında yerləşdirilsin.
5. Əmr bütün şəxsi heyətə çatdırılsın.
6. Əmrin icrasına nəzarət direktorun müavini Hacıağa Hacıyevə həvalə edilsin.

Direktorun vəzifəsini müvəqqəti icra edən, direktorun müavini **Nazim Ziyadov**

Dövlət Mülki Aviasiya Agentliyinin
82 №-li 5 sentyabr 2022-ci il tarixli
Əmri ilə
TƏSDİQ OLUNUB

AZƏRBAYCAN AVİASİYA QAYDALARI – Mülki Aviasiyada Uçuşların Radiotexniki, Rabitə Təminatı və Hava Hərəkətinin Avtomatlaşdırılmış İdarəetmə Sistemləri

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № AAR-ANS-017

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 7 yanvar 2020-ci il

Dəyiş.№ 03, 13 sentyabr 2022-ci il

Bakı şəhəri

https://www.caa.gov.az

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 MÜNDƏRICAT

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 5

0.3 Sənədin Yayılma Siyahısı 7

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 8

0.5 Terminlər 9

0.6 Qisaltmalar 13

1 ÜMUMİ MÜDDƏALAR 1

2 MÜLKİ AVİASİYADA UÇUŞLARIN RADİOTEXNİKİ, RABİTƏ və HH AİS TƏMİNATI 1

2.1 Uçuşların Radiotexniki, Rabitə və HH AİS Təminatı Vasitələri 1

2.2 RTAR və HHAİS Obyektlərin İşinə Nəzarət 2

2.3 RTAR və HHAİS Vasitələrinin və Onları İstismar edən Təşkilatların Dövlət Qeydiyyatından Keçməsinə və Sertifikasiya Almasına dair Tələblər 4

2.4 RTAR və HHAİS Mərkəzinin Texniki İstismar Zamanı və Qəza Hallarında Digər Xidmət və Təşkilatlarla Qarşılıqlı Fəaliyyəti 6

3 ETİBARLILIQ GÖSTƏRİCİLƏRİ 1

3.1 Texniki Vasitələrin İşi 1

3.2 RTAR və HHAİS Vasitələrinin Ehtiyatlanması 3

4 RTAR və HHAİS OBYEKTLƏRİNİN TEXNİKİ İSTİSMARI 1

4.1 RTAR və HHAİS Obyektlərinin Texniki İstismarının Təşkili 1

4.2 Obyektlər üzrə İşin Təşkil Olunması 2

5 RTAR və HHAİS OBYEKTLƏRİNİN və TEXNİKİ VASİTƏLƏRİNİN İSTİSMARA VERİLMƏSİ 1

5.1 Obyekt və Texniki Vasitələrin İstismara Verilməsinə dair İşlərin Təşkili 1

5.2 AR və HHAİS Obyektlərinin Əsaslı Tikintisi Zamanı İşin Gedişatına Nəzarət 3

5.3 Dövlət İstismar Sınaqları 3

6 RTAR və HHAİS VASİTƏLƏRİNƏ TEXNİKİ XİDMƏT 1

6.1 RTAR və HHAİS Vasitələrinə Texniki Xidmətin Təşkil Olunması 1

6.2 Aeroport Ərazisindən Kənarda Yerləşdirilmiş Texniki Vasitələrinə Texniki Xidmətin Təşkil Olunması 4

6.3 Xətti-Kabel Qurğularına Texniki Xidmətin Aparılması 5
6.4 Anten Qurğularına Texniki Xidmətin Keçirilməsi Qaydaları 6
6.5 Obyektlər üzrə Elektrik Enerji Təchizatı Sistemlərinə Texniki Xidmətin Təşkili və Yerinə Yetirilməsi 6
6.6 Fövqəladə Şəraitlərdə RTAR və HHAİS Texniki Vasitələrinə Texniki Xidmət 9
6.7 RTAR və HHAİS Vasitələrinin Texniki İstismarı Zamanı Metroloji Təminat 9
6.8 Proqram Təminatı üzrə Texniki Xidmət (PTX) 11
7 RTAR və HHAİS TEXNİKİ VASİTƏLƏRİNİN TƏMİRİ 1
7.1 Radiotexniki Avadanlıqların Təmiri 1
7.2 Anten-Fider Qurğularının və Xətti-Kabel Qurğularının Təmiri 1
7.3 RTAR və HHAİS Vasitələrinə Əlavələr Edilməsi 2
7.4 RTAR və HHAİS Vasitələrinin Xidmət Müddətinin və ya Resursunun Artırılması 3
8 HAVADAKI HƏRƏKƏTİN TƏŞKİLİ (HHT) PROSESLƏRİNİN PROQRAM TƏMİNATI 1
8.1 Uçuşların Təhlükəsizliyinə dair Tələblər 1
8.2 Proqram Təminatının Təhlükəsizliyinə Zəmanət Verən Sistemə Tətbiq Edilən Tələblər 1
8.3 Proqram Təminatının Təhlükəsizlik Zəmanətinin Səviyyələrinə Tətbiq Edilən Eələblər 2
8.4 Proqram Təminatının İş Fəaliyyəti Zamanı Zəmanətinə Qoyulan Tələblər 3
8.5 Proqram Təminatının Yoxlanışının Keçirilməsinə Dair Yerinə Yetirilən Zəmanətlərə Qoyulan Tələblər 3
8.6 Proqram Təminatının Malik Olduğu Konfiqurasiyanın İdarə Edilməsinə Dair Yerinə Yetirilən Zəmanətlərə Qoyulan Tələblər 3
8.7 Program Təminatının İşə Verilməsi və Dəyişikliklər 3
9 RTAR və HHAİS VASİTƏLƏRİNİN YERÜSTÜ VƏ UÇUŞLA YOXLANIŞI 1
9.1 Yerüstü Yoxlanış 1
9.2 Uçuşla Yoxlanış 1
10 RTAR və HHAİS MƏRKƏZİ ÜZRƏ MÜHƏNDİS-TEXNİKİ HEYƏTİN HAZIRLANMASI 1
11 RTAR və HHAİS OBYEKTLƏRİNİN MATERİAL-TEXNİKİ TƏCHİZATI 1
11.1 RTAR və HHAİS Mərkəzi üzrə Texniki İstismarın Material-Texniki Təchizatının Təşkil Olunması 1
12 RTAR və HHAİS OBYEKTLƏRİNDƏ ƏMƏYİN MÜHAFİZƏSİ 1
13 RTAR və HHAİS OBYEKTLƏRİNDƏ YANĞINDAN MÜHAFİZƏ 1
14 RTAR VƏ HHAİS üzrə xidmət təminatçısına nəzarət 1

15 İSTİSMAR SƏNƏDLƏRİNİN APARILMASI 1

15.1 İstismar Sənədləri 1

15.1.1 RTAR və HHAİSİ Mərkəzi üzrə İstismar Sənədləri 1

15.1.2 RTAR və HHAİS Obyektləri üzrə İstismar Sənədlərinin Siyahısı 2

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 SƏHIFƏLƏRIN SIYAHISI

	Hissə 0	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	13.SEN.2022	03
2	27.SEN.2021	02
3	27.SEN.2021	02
4	07.YAN.2020	00
5	13.SEN.2022	03
6	13.SEN.2022	03
7	07.YAN.2020	00
8	13.SEN.2022	03
9	07.YAN.2020	00
10	07.YAN.2020	00
11	07.YAN.2020	00
12	07.YAN.2020	00
13	27.SEN.2021	02
14	07.YAN.2020	00
	Hissə 1	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.İYUN.2021	01
2	07.YAN.2020	00
	Hissə 2	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01.MAY.2019	00
2	07.YAN.2020	00
3	27.SEN.2021	02
4	13.SEN.2022	03
5	07.İYUN.2021	01
6	27.SEN.2021	02
7	07.YAN.2020	00
8	07.YAN.2020	00
	Hissə 3	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
3	07.YAN.2020	00
4	07.YAN.2020	00
	Hissə 4	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	13.SEN.2022	03
3	13.SEN.2022	03
4	07.YAN.2020	00

	Hissə 5	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
3	07.YAN.2020	00
4	07.YAN.2020	00
	Hissə 6	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	27.SEN.2021	02
3	27.SEN.2021	02
4	07.YAN.2020	00
5	07.YAN.2020	00
6	07.YAN.2020	00
7	07.YAN.2020	00
8	07.İYUN.2021	01
9	07.YAN.2020	00
10	07.İYUN.2021	01
11	07.YAN.2020	00
12	07.YAN.2020	00
	Hissə 7	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
3	07.İYUN.2021	01
4	07.YAN.2020	00
	Hissə 8	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
3	07.YAN.2020	00
4	07.YAN.2020	00
	Hissə 9	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
	Hissə 10	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	13.SEN.2022	03
2	07.YAN.2020	00

	Hissə 11	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
	Hissə 12	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
3	07.YAN.2020	00
4	07.YAN.2020	00
	Hissə 13	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	07.YAN.2020	00
2	07.YAN.2020	00
	Hissə 14	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	27.SEN.2021	02
2	27.SEN.2021	02
	Hissə 15	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	13.SEN.2022	03
2	13.SEN.2022	03

0.3 SƏNƏDIN YAYILMA SIYAHISI

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə Nəzarət və Normayaratma İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə Nəzarət və Normayaratma İdarəsi	Q-Pulse
2	**(S)**	Keyfiyyətə Nəzarət və Normayaratma İdarəsi	DMAA-nın rəsmi internet səhifəsi

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.4 DÜZƏLIŞ VƏ DƏYIŞIKLIKLƏRIN QEYDIYYATI

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	07.YAN.2020	Əmr № 73 27.12.2019	
Dəyişik.№ 01	07.İYUN.2021	Əmr № 43 24.05.2021	
Dəyişik.№ 02	27.SEN.2021	Əmr № 53 20.09.2021	
Dəyişik.№ 03	13.SEN.2022	Əmr № 82 05.09.2022	Təkmilləşdirmə

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmiş dəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin aktual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

0.5 TERMINLƏR

Aviasiya rabitə kanalı (verici kanal) - məlumatın verilməsini (ötürülməsini) göndərəndən qəbul edənə təmin edən texniki vasitələr ilə elektrik siqnallarının və radiosiqnalların yayıldığı mühitin toplusudur.

Dövri nəzarətlə yerinə yetirilən texniki xidmət - texniki vəziyyətə nəzarət normativ-texniki sənədlərdə (reqlamentdə) nəzərdə tutulan həcm və dövriliklə yerinə yetirilir, lakin digər əməliyyatların həcmi texniki xidmətin başlanğıcında vasitənin texniki vəziyyəti ilə təyin olunur.

Dəqiqlik (Accuracy) - hesablanmış nəticələrin dəqiqliyi üçün tələb edilən dəqiqlikdir.

Elektrik paylayıcı qurğu (paylayıcı qurğu) - elektrik enerjisinin qəbulu və paylanması üçün nəzərdə tutulmuş, habelə qoşulma (komutasiya) avadanlıqlarını, köməkçi qurğuları və digər elementləri özündə birləşdirən elektrik qurğusudur.

Elektrik rabitəsi - radio, naqilli, optik və digər elektromaqnit sistemlərin vasitəsi ilə siqnalların, işarələrin, yazılı mətnlərin, təsvirlərin, faylların və səslərin hər cür formada verilməsi (yaxud ötürülməsi) və qəbuludur.

Etibarlılıq - texniki vasitənin iş rejimi, istifadə şəraiti, texniki xidməti, təmiri, qorunub-saxlanılması və daşınması zamanı tələb olunan funksiyaların yerinə yetirilməsini səciyyələndirən bütün texniki göstəricilərini təyin olunmuş hədd daxilində qoruyub-saxlaya bildiyi xassədir.

Ehtiyat elektrik qida (enerji) təchizatı - elektrik enerjisinin generasiyasını və (və ya) çevrilməsini, verilməsini, paylanmasını birləşdirən bütöv bir ehtiyat sistemdir və verilmiş hədd daxilində onun parametrlərinin qorunub-saxlanılmasını təmin edən elektrik enerji mənbələrindən və (və ya) çeviricilərindən, elektrik şəbəkəsindən, paylayıcı qurğulardan, idarəedici, nəzarət və mühafizə qurğularından ibarətdir.

Ehtiyatlama - bir və ya bir neçə texniki vasitənin imtinası zamanı obyektin iş qabiliyyətinin qorunub-saxlanılması məqsədi ilə əlavə texniki vasitələrdən və (və ya) imkanlardan istifadə olunmasıdır.

Qiymətləndirmə (Assessment) – texniki və istismar kriteriyalarına və (və ya) analitik üsullara görə uyğunluğun təyin edilməsidir.

HHT (ATM) – uçuşun bütün mərhələlərində HG-nin səmərəli və təhlükəsiz hərəkətini təmin etmək üçün zəruri olan bort və yerüstü funksiyaların (havadakı hərəkətə xidmət olunması, hava məkanının təşkili və havadakı hərəkət axınının təşkili) toplusudur.

HHT xidmətləri (ATM Service) – HHT məqsədilə təqdim edilən xidmətlərdir.

HHT xidmətlərini təqdim edən provayder (ATM Service Provider) – HHT xidmətlərini təqdim etmək üçün səlahiyyətlər verilmiş və bu məqsədlə məsuliyyət daşıyan təşkilatdır.

HHT proqram təminatı (ATM Software) – HHT zamanı istifadə edilən proqram təminatıdır.

HHT sistemi – HH AİS (ATM System) – aeronaviqasiya xidmətlərini yerinə yetirmək üçün nəzərdə tutulan sistemin HHT yerüstü və bort komponentlərindən ibarət olan bir hissəsidir.

Zədələnmə - texniki vasitənin saz vəziyyətinin korlanmasına baxmayaraq öz iş qabiliyyətini saxlaya bildiyi hadisədir.

Zərərli istehsalat amili - təyin olunmuş iş şəraitində işçinin xəstələnməsinə və ya iş qabiliyyətinin aşağı düşməsinə səbəb olan istehsalat amilidir.

İmtinasızlıq - müəyyən vaxt ərzində və ya işin müəyyən saathesabı müddətində texniki vasitənin öz iş qabiliyyətini fasiləsiz olaraq saxlaya bilməsi xassəsidir.

İstehsalat avadanlığının təhlükəsizliyi - istehsalat avadanlığının normativ-texniki sənədlərində göstərilmiş şəraitdə onun üçün təyin olunmuş funksiyaları yerinə yetirən zaman əməyin təhlükəsizliyinə dair tələblərə olan uyğunluğu saxlama xassəsidir.

İstehsalat imtinası - təmir zavodunda (istehsalçı müəssisədə) texniki vasitənin hazırlanması və ya təmiri prosesinin mükəmməl olmaması və ya pozulması səbəbindən baş verən imtinadır.

İstehsalat prosesinin təhlükəsizliyi - dedikdə, təhlükəli və zərərli istehsalat amillərinin işçilərin sağlamlığına təsir edə bilmədiyi əmək şəraiti nəzərdə tutulur.

İstehsalat sanitariyası - təhlükəli istehsalat amillərinin işçilərə təsirini azaldan və ya aradan qaldıra bilən təşkilati tədbirlərin və texniki vasitələrin sistemli toplusudur.

İstehsalatda bədbəxt hadisə - işçinin öz əmək vəzifələrini və ya iş rəhbərinin verdiyi tapşırığı yerinə yetirərkən təhlükəli istehsalat amilinin işçiyə təsir etdiyi hadisədir.

İstehsalatda mühafizə vasitələri - bir və ya bir neçə işçiyə təhlükəli və (və ya) zərərli istehsalat amilinin etdiyi təsiri azaldan və ya ləğv edən vasitələrdir.

İstismar imtinası - texniki vasitənin istismarı zamanı onun üçün təyin edilmiş qaydaların və şəraitin pozulması nəticəsində baş verən imtinadır.

İş qabiliyyəti - texniki vasitə üçün verilmiş funksiyanın yerinə yetirilməsini səciyyələndirən bütün parametrlərin qiymətlərinin normativ-texniki və (və ya) konstruktor sənədlərindəki tələblərə uyğun olduğunu göstərən vəziyyətdir.

Konfiqurasiya formatı (Configuration data) – proqram təminatının konkret istifadəsi üçün ümumi sistemi formalaşdıran formatdır. Məs., uçuş məlumatlarının konkret hava məkanında emalı üçün uyğunlaşdırılan formatdır. Bu zaman hava xətlərinin, məlumatların ötürülmə məntəqələrinin, aeronaviqsiya vasitələrinin, aeroportların və aeronaviqasiya üçün digər vacib olan elementlərin yerləşdiyi vəziyyət təyin edilir və uyğunlaşdırılır.

Nasazlıq (nasaz vəziyyət) - texniki vasitənin normativ-texniki və (və ya) konstruktor sənədlərindəki göstərilən tələblərdən ən azı birinə uyğun gəlmədiyi vəziyyətdir.

Operativ texniki xidmət - obyektin (texniki vasitənin, rabitə kanalının) iş qabiliyyətini qoruyub-saxlamaq və onun işinə nəzarət məqsədilə təyin olunmuş texniki xidmət təlimatları (reqlamentləri) əsasında mürəkkəb olmayan texnoloji əməliyyatların çevik (operativ) yerinə yetirilməsini nəzərdə tutan dövri texniki xidmətdir.

Parametrin buraxıla bilən həddi - istismar və təmir sənədlərinə əsasən texniki vasitənin iş qabiliyyətinin saxlanılması şərti ilə saz vəziyyətin parametrik qiymətinin korlana bilən həddidir.

Proqram təminatının müstəqil komponentləri (Independent Software Components) – təhlükənin yaranmasına səbəb ola bilən imtinalar halında da proqram təminatının öz fəaliyyətini dayandırmayan komponentləridir.

Planlı təmir - normativ-texniki sənədlərin tələblərinə muvafiq olaraq həyata keçirilən təmir işləridir.

Rejimlərn çevrilməsi (Cutover (Hot Swapping)) – CNS/ATM sistemlərinin malik olduqları komponentlərin və ya sistemlərin işi zamanı proqram təminatının dəyişdirilməsi.

Resurs - texniki vasitənin istismarın başlanğıcından hesablanan saathesabı işinin və ya təmirdən sonra son həd vəziyyətinə qədər olan saathesabı işinin qiymətidir.

Riskin azaldılması (Risk Mitigation) – təhlükənin zərər verə biləcəyi hallarda yerinə yetirilən tədbirlər və ya bu cür halların qarşısının alınmasıdır.

RTAR və HHAİS vasitəsi - havadakı hərəkətə xidmət edilməsinin vahid sistemində və (və ya) MA müəssisəsinin istehsalat fəaliyyətində uçuşların radiotexniki və rabitə təminatına dair təyin olunmuş funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş və istehsalçının şərtlərinə müvafiq olaraq hazırlanan və təchiz olunan texniki vasitədir.

RTAR və HHAİS obyekti - havadakı hərəkətin idarə edilməsində vahid sistemlər üçün müəyyən olunmuş funksiyanın, habelə müəssisənin istehsalat fəaliyyətinin təmin olunması üçün nəzərdə tutulan, mühəndis-texniki heyət tərəfindən xidmət olunan və yer üstündə stasionar və ya mobil variantlarda quraşdırılan uçuşların radiotexniki və rabitə təminatı (RTAR və HHAİS) vasitələrinin, köməkçi və texnoloji avadanlıqların (muxtar elektrik qidalanma vasitələri, rabitə və idarəetmə xətləri və s.) toplusudur.

Saathesabı iş - texniki vasitənin (rabitə kanalının, obyektin) saatlarla hesablanan iş müddətidir.

Sistemin elementinin imtinası - şəbəkə ehtiyatlanması prinsipi əsasında qurulmuş sistemin hər hansı bir elementinin imtinasının bütövlükdə sistemin özünün imtinasına gətirə bilmədiyi haldır.

Son həd vəziyyəti - texniki vasitənin təyinatı üzrə sonrakı istismarının yolverilməz və məqsədəuyğun olmadığını göstərən vəziyyətdir, yaxud da ki, həmin vasitənin sazlığının, iş qabiliyyətinin bərpa olunmasının mümkün və ya məqsədəuyğun olmadığını göstərən vəziyyətdir.

Texniki vasitənin imtinası - həmin vasitənin iş qabiliyyətinin pozulduğu hadisədir (vəziyyətdir).

Texniki vəziyyət - texniki vasitənin istismar prosesində dəyişikliklərə uğrayan, təyinedici parametrlərlə (əlamətlərlə) səciyyələndirilən və həmin vasitənin texniki sənədlərində göstərilən xassələrin toplusudur.

Texniki vəziyyət üzrə təmir - həcmi və dövriliyi normativ-texniki sənədlərlə təyin olunan texniki vəziyyətə nəzarətin planlı təmir növüdür, lakin bu vaxt təmirin başlanma anı və həcmi vasitənin texniki vəziyyəti ilə təyin olunur.

Texniki xidmət - texniki vasitənin təyinatı üzrə istifadə olunması, qorunub saxlanılması və daşınması zamanı iş qabiliyyətinin və ya sazlığının lazımi həd daxilində saxlanılması üçün yerinə yetirilən əməliyyat və (və ya) əməliyyatlar sistemidir.

Texniki xidmət üçün texnoloji xəritə - zəruri olan əməliyyatların, texniki tələblərin, istifadə olunan texniki vasitələrin və əmək sərfinin siyahısını göstərən sənəddir.

Texniki xidmətin dövriliyi - eyni növ və ya daha mürəkkəb texniki xidmətlər arasındakı saathesabı iş və ya zaman müddətidir.

TX reqlamenti - RTAR və HHAİS vasitələrinin texniki xidmətinin həcmini və dövriliyini təyin edən sənəddir.

Təhlükə (Hazard) – aviasiya hadisəsinin baş verməsinə (yaranmasına) səbəb ola bilən istənilən şərait, hadisə və şərtlərdir.

Təyin olunmuş resurs - texniki vasitənin təyinatına əsasən müəyyən edilmiş həddə çatdıqdan sonra həmin vasitənin istifadəsini dayandıran saathesabı işin yekun qiymətidir.

Təyin olunmuş xidmət müddəti - texniki vasitənin istismarı zamanı, onun təyinatına əsasən müəyyən edilmiş həddə çatdıqdan sonra həmin vasitənin istifadəsini dayandıran təqvim müddətidir.

Təyinedici parametr (əlamət) - yoxlama vaxtı obyektin (texniki vasitənin, rabitə kanalının) texniki vəziyyətinin təyin edilməsi üçün istifadə olunan əlamətdir.

Təminatlı elektrik qida lövhəsi - bir elektrik təchizatı mənbəyinin imtinası (sıradançıxması) zamanı gərginliyin təminatlı vaxt ərzində digər mənbədən bərpa olunmasını həyata keçirən paylayıcı qurğudur.

Təmirə yararlılıq - texniki vasitənin zədələnməsi və imtinası zamanı aşkarlanmış səbəblərin texniki xidmət və ya təmir vasitəsilə aradan qaldırılmasına imkan verən xassəsidir.

Təhlükəsizlik texnikası - işçiyə təhlükəli istehsalat amillərinin etdiyi təsiri ləğv edən təşkilati tədbirlərdən və texniki vasitələrdən ibarət sistemdir.

Təhlükəli istehsalat amili - müəyyən şəraitlərdə bədəndə zədələnmələrə və (və ya) sağlamlığın kəskin pisləşməsinə səbəb olan istehsalat amilinin etdiyi təsirdir.

Uçuşların təhlükəsizliyi (Safety) – hər hansı zərərin yarana bilməsi üçün riskin ümumiyyətlə mövcud olmamasıdır.

Uzunömürlülük - texniki xidmətin və təmirin təyin olunmuş sxem əsasında vasitənin son həddurumuna qədər iş qabiliyyətini saxlaya bildiyi xassədir.

Fasiləsiz nəzarətlə yerinə yetirilən texniki xidmət - normativ-texniki sənədlərdə nəzərdə tutulan və vasitənin texniki vəziyyəti üzrə keçirilən fasiləsiz nəzarətin nəticələrinə əsasən yerinə yetirilən texniki xidmətin bir növüdür.

Fərdi mühafizə vasitələri - bir nəfər işçinin mühafizə olunması üçün nəzərdə tutulan vasitələrdir.

Xidmət müddəti - texniki vasitənin istismarın başlanğıcından və ya təmirdən sonra son həddvəziyyətinə qədər olan təqvim müddətidir.

Əməyin mühafizəsi - əmək prosesində insanın iş qabiliyyətinin və sağlamlığının qorunmasını, eləcə də təhlükəsizliyini təmin edən qanunverici aktlardan, sosial-iqtisadi, təşkilati, texniki, gigiyenik, müalicə-profilaktik tədbirlərdən və vasitələrdən ibarət sistemdir.

0.6 QISALTMALAR

AzRM	Azimutal Radiomayak
AİR	Avtomatlaşdırılmış İstiqamətləndirici radiostansiya
AMR	Aerodrom Müşahidə Radarı
AR	Aktiv Radiolokasiya
ARP	Avtomatik Radiopelenqator
AT	Aşağı Tezliklər
ATX	Amplitud-Tezlik Xüsusiyyəti
AXT	Aeronaviqasiya üzrə Xidmət Təminatçısı
BR	Birincili Radar
BRm	Birincili Radiolokasiya
VQA	Verici -Qəbuledici avadanlıq
QRM	Qlissada Radiomayakı
EnMK	Enmənin Maqnit Kursu
EnRS	Enmənin Radar Sistemi
ER	Enmə Radarı
ERS	Enmənin Radiotexniki Sistemləri
İYT	İfrat Yüksək Tezliklər
İR	Ikincili Radar
İRm	Ikincili Rdiolokasiya
İRST	İstiqamətləndirici Radiostansiya
İTA	İşıqlanma Texnikasının Avadanlığı
YQİŞ	Yerüstü qurğuların istismar şöbəsi
YİRM	Yaxından İstiqamətləndirici Radiomayak
YYM	Yaz-Yay Mövsümü
YMRM	Yaxın Markerli Radiomayak
YNRTS	Yaxın Naviqasiyanın RadioTexniki Sistemi
YT	Yüksək Tezliklər
YKŞ	Yerli Kompüter Şəbəkəsi
KDM	Komanda-Dispetçer Məntəqəsi
KRM	Kurs Radiomayakı

MA	Mülki Aviasiya
MQZM	Məlumatların Qoşulmasının Zona Mərkəzi
MQM	Məlumatların Qoşulma Mərkəzi
MDF	Modullama Dərinliklərinin Fərqi
MİRST	Müstəqil İstiqamətləndirici Radiostansiya
MK	Maqnit Kursu
MRM	Markerli Radiomayak
OT	Orta Tezliklər
RVM	Radio Verici Mərkəz
PQM	Payız-Qış Mövsümü
PR	Passiv Radiolokasiya
PRS	Peyk Rabitə Sistemi
PT	Proqram Təminatı
PTX	Proqram Texniki Xidməti
RQM	Radio Qəbuledici Mərkəz
RS	Radar Stansiyası
RTT	RadioTexniki Təminat
SDM	Start Dispetçer Məntəqəsi
SY	Sürmə Yolu
SUEZ	Süni Uçuş-Enmə Zolağı
T(A)RK	Trass (Aerodrom) Radar Kompleksi
Tİ	Texniki İstismar
TİS	Texniki İstismar Sənədləri
TMR	Trass Müşahidə Radarı
TNQ	Tikinti Normaları və Qaydaları
TX	Texniki Xidmət
TXvəT	Texniki Xidmət və Təmir
UEZ	Uçuş-Enmə Zolağı
UzRM	Uzaqlıqölçən Radiomayak
UİRM	Uzaqdan İstiqamətləndirici Radiomayak
UYT	Ultra Yüksək Tezliklər
URM	Uzaq Radiomayak

RTAR və HHAİS	Radiotexniki avadanlıqların, Rabitənin və Havadakı Hərəkətin Avtomatlaşdırılmış İdarəetmə Sistemləri
USM RS	Uçuş Sahəsinin Müşahidəsi üçün Radar Stansiyası
FEQM	Fasiləsiz Elektrik Qida Mənbəyi (UPS)
XKQ	Xətti-Kabel Qurğusu
ÇYT	Çox Yüksək Tezliklər
HM	Hava Məkanı

HNSS	Hava Nəqliyyatında Sertifikatlaşdırma Sistemi
HHİE	Havadakı Hərəkətin İdarə Edilməsi
HH AİS	Havadakı Hərəkətin Avtomatlaşdırılmış İdarəetmə Sistemləri
ERS	Enmənin Radiotexniki Sistemləri
HG	Hava Gəmisi

1 ÜMUMİ MÜDDƏALAR

1.1. Mövcud Aviasiya Qaydaları Azərbaycan Respublikasının Mülki aviasiyasında uçuşların radiotexniki, rabitə, və havadakı hərəkətin avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təminatına, habelə müvafiq obyektlərin texniki istismarına dair qaydaları müəyyən edir.

1.2. Bu Qaydalar (bundan sonra mətndə belə gedəcək) Azərbaycan Respublikasının mülki aviasiya sahəsinə aid olan qanunverici və nizamlayıcı sənədlərinin qüvvədə olan tələbləri, eləcə də Beynəlxalq Mülki Aviasiya təşkilatı ICAO-nun standartları və tövsiyələri və EUROCONTROL agentliyinin normativ tələbləri (ESARR və ona əlavələrə) əsasında hazırlanmışdır.

1.3. Aviasiya Qaydaları Azərbaycan Respublikasının hava məkanında havadakı hərəkətin təhlükəsiz və səmərəli təmin olunması məqsədi ilə mülki aviasiyada radiotexniki və rabitə təminatının yerüstü vasitələrinin, havadakı hərəkətin avtomatlaşdırılmış idarəetmə sistemlərinin, onların istismar olunduğu obyektlərin texniki istismarının planlaşdırılması, təşkil olunması və yerinə yetirilməsini nizamlayan normativ sənəd hesablanır.

1.4. Azərbaycan Respublikasının mülki aviasiyasında uçuşların radiotexniki, rabitə və HH AİS təminatına dair funksiyalar və istehsalat fəaliyyəti aeronaviqasiya təminatını yerinə yetirən Aeronaviqasiya üzrə Xidmət Təminatçısının (AXT-nın) RTAR və HHAİSİ Mərkəzi tərəfindən həyata keçirilir. RTAR və HHAİSİ Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının mülki aviasiya sahəsinə dair qanunverici və nizamlayıcı sənədlərlə, mövcud Aviasiya Qaydaları, Beynəlxalq Mülki Aviasiya təşkilatı ICAO-nun standartları və tövsiyələri, habelə digər normativ sənədlərlə nizamlanır.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

2 MÜLKİ AVİASİYADA UÇUŞLARIN RADİOTEXNİKİ, RABİTƏ VƏ HH AİS TƏMİNATI

2.1 UÇUŞLARIN RADIOTEXNIKI, RABITƏ VƏ HH AİS TƏMINATI VASITƏLƏRI

2.1.1 Obyektlərə və texniki vasitələrə qoyulan əsas tələblər; ICAO və EUROCONTOL, sertifikasiya və mülki aviasiyanın uyğunluq normaları ilə tənzimlənir.

2.1.2 Texniki vasitələrin istismar sənədlərinin tələblərinə ciddi riayət edilməklə istismar olunmalı,bu vasitələrin texniki xüsusiyyəti istismar sənədlərində göstərilən parametrlərin qiymətlərinə uyğun gəlməli və istismar müddətində verilmiş hədd daxilində olmalıdır.

2.1.3 Texniki vasitələrinin obyektdə yerləşdirilməsi istismar və layihə sənədlərinin tələblərinə cavab verməlidir.

2.1.4 Obyektlərdə mühəndis-texniki heyətin sayı konkret vasitələr, texniki xidmətin təyin olunmuş forma və üsulları, eləcə də əməyin mühafizəsinə dair normativ sənədlərin tələbləri nəzərə alınmaqla təyin edilir.

2.1.5 Texniki vasitələrin konstruktiv quruluşu və funksional imtinalar aşağıdakıları təmin etməlidir:

- Əsas dəstdən ehtiyat dəstə avtomatik keçən zaman yerinə yetirilən funksiyaların tamlığına və keyfiyyətinə təsir etməməlidir. (Texniki-istismar sənədlərinin tələbləri nəzərə alınmalıdır);
- Ehtiyat dəstə əl ilə keçməni təmin edən imkan olmalıdır;
- Texniki vasitənin funksional tərkib hissələrinin səmərəli sayda hissələrə bölünə bilməsi üçün qurulmanın modul prinsipi təmin edilməlidir;
- Texniki vasitələr stasionar otaqlarda və konteynerlərdə yerləşdirilməlidir.
- Konteynerlərdə yerləşdirilmiş vasitələrin sökülərək stasionar otaqlarda quraşdırılma imkanı olmalıdır;
- Texniki vasitənin funksional imkanlarının artırılması mümkün olmalıdır;
- Texniki xidmətin və təmirin tələbləri yerinə yetirilməlidir;
- Təhlükəsiz istismarın həyata keçirilməsi üçün texniki vasitə təhlükəsizlik texnikasının, yanğından-mühafizənin və sənaye sanitariyası qaydalarının tələblərinə uyğun gəlməlidir.
- Temperatur və nisbi rütubət rejimi avadanlığın istismar tələblərinə cavab verməlidir;

2.1.6 Texniki vasitəsin konstruktiv quruluşu mühəndis-texniki heyət tərəfindən onlara texniki xidmət göstərilərkən modul və blokların dəyişdirilməsi zamanı onların səhv hərəkətlərinə imkan verməməlidir;

2.1.7 Texniki vasitənin yığcam şəkildə yerləşdirilməsi nəzarətin, tənzimləmənin, konsruktiv elementlərin dəyişilməsinin, habelə vasitələrin istismarı, texniki xidməti və təmiri zamanı digər işlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan yerlərdə sərbəst şəkildə işləmək imkanı verməlidir.

2.1.8 Texniki vasitənin elektrik enerjisi ilə təchizatı obyektlərin elektrik təchizatı dərəcəsindən (kateqoriyasından) asılı olaraq müstəqil və qarşılıqlı ehtiyatlanan elektrik enerji mənbələrindən təchiz olunur.

2.1.9 Əsas elektrik enerji təchizatı mənbəyi kimi mərkəzləşdirilmiş elektrik enerji təchizatı sistemindən qəbul edən mənbə götürülür. Ehtiyat elektrik enerji mənbəyi kimi dizel generatordan, fasiləsiz qida mənbəyindən (UPS), akkumulyator batareyalarından istifadə edilir.

2.1.10 Obyektlərin elektrik enerji təchizatı layihə sənədlərinə, "Elektrik avadanlıqlarının istismarı və təhlükəsizlik texnikası qaydaları"nın tələblərinə cavab verməlidir.

2.1.11 Yeni tikilmiş, yenidən qurulmuş və ya fəaliyyətdə olan obyektlərin elektrik enerjisi ilə təchizatının etibarlılıq dərəcəsi, habelə imtinası və zədələnmələr vaxtı elektrik enerji təchizatındakı maksimal bərpa olunma müddəti Azərbaycan Respublikası MA sertifikat sənədlərinin tələblərinə uyğun gəlməlidir.

2.1.12 Uçuşların təminatı ilə əlaqəsi olmayan elektrik enerjisi istehlakçılarının RTAR və HHAİSİ Mərkəzi üzrə obyektlərdə təminatlı elektrik güc lövhələrinə qoşulmaları qəti qadağandır.

2.2 RTAR və HHAİS OBYEKTLƏRIN İŞINƏ NƏZARƏT

2.2.1 Texniki vasitələrin işə qoşulması və işdən açılması HHİE uçuş rəhbəri (dispetçeri) ilə razılaşdırılmaqla və növbə mühəndisin (texnikin) iş jurnalında yazılı şəkildə qeyd olunduqdan sonra mümkündür.

Növbə mühəndisin (texnikin) iş jurnalında texniki vasitələrinin iş keyfiyyətinə, onların işində olan iradların olub-olmamasına, habelə onların işə qoşulmasına, ehtiyata keçirilməsinə və işdən açılmasına dair qeydlər aparılır.

2.2.2 Texniki vasitələrin (elektrik rabitəsinin yanötmə kanallarının) ehtiyata keçirilməsi (ehtiyatlanması) üçün normativ vaxt, habelə mühəndis-texniki heyətin hərəkətləri obyektlərdə ehtiyatlamaya dair müvafiq təlimatlarda göstərilməlidir.

2.2.3 Ehtiyatlama təlimatları müvafiq qovşaq rəisi və ya obyektin rəhbəri tərəfindən hazırlanıb imzalanır, Mərkəzin rəisi tərəfindən təsdiqləndikdən sonra obyektdə saxlanılır. Texniki vasitələrin ehtiyata keçirilməsi (ehtiyatlanması) üçün normativ vaxt cədvəlləri HHİE xidməti ilə razılaşdırılır.

2.2.4 Obyektlərin işini tənzimləyən və ehtiyatlamaya dair təlimatlar HHİE VS BM (regional bölmələrdəki HHİE xidməti) ilə razılaşdırılmalıdır.

2.2.5 Texniki vasitələrin ehtiyatlanması üçün normativ vaxt cədvəli növbə mühəndisin (texnikin) iş yerində olmalıdır.

2.2.6 Obyektin (-lərin) iş qabiliyyəti korlandıqda uçuş rəhbəri bu barədə məlumatlandırılır və bu barədə iradlar jurnalında müvafiq qeydlər aparmalıdır.

2.2.7 Obyektin işi təmin edə bilmədiyi müddət dedikdə, işin dayandığı andan iş qabiliyyətinin bərpa olunduğu ana qədər keçən vaxt nəzərdə tutulur və bu haqda növbə mühəndisin (texnikin) jurnalında yazılı qeyd aparmalıdır.

2.2.8 Texniki vasitənin imtina etdiyi və rabitənin korlandığı hal baş vermə səbəbindən asılı olmayaraq avadanlığın imtinasına (rabitənin korlanmasına) dair qeydlər jurnalında yazılır, və Mərkəzin rəhbəri tərəfindən təyin olunmuş komissiya tərəfindən imtinanın təhqiqatı aparılır.

Təhqiqatın nəticələri funksional imtinanın (rabitənin korlanmasının) təhqiqat aktı ilə sənədləşdirilir.

2.2.9 Növbətçi mühəndis-texniki heyəti olmayan avtomatlaşdırılmış obyektlərinin iş qabiliyyətinə nəzarət növbə mühəndisi (texniki) tərəfindən məsafədən nəzarət və idarəetmə sistemlərinin siqnallarına, dispetçer və uçuş heyətinin iradlarına əsasən aparılır.

2.2.10 Növbətçi mühəndis-texniki heyəti olan obyektlərdə texniki vasitələrin iş qabiliyyətinə nəzarətin yerinə yetirilməsi üçün rabitə kanalının təyinatından və obyektin konstruksiyasından asılı olaraq aşağıdakılar həyata keçirilir:

- Avtomatlaşdırılmış vasitələrin siqnallarına, həmin vasitələrin üzərində quraşdırılmış nəzarət-ölçü cihazlarının və nəzarət displeylərinin, indikatorlarının göstəricilərinə, habelə müvafiq proqram təminatındakı parametrlərə əsasən nəzarət yerinə yetirlir;
- Nəzarət üçün nəzərdə tutulan elektron təsvirlərdə, texniki-nəzarət proqramlarında olan məlumatların displeylərdə, indikatorda əks olunan havadakı şəraitə aid məlumatlarla müqayisəsinə əsasən nəzarət yerinə yetirlir;
- Aviasiya elektrik rabitəsi kanallarının işinin keyfiyyətinə nəzarət məqsədilə aparılan dinləmələrin, müxbirlər arası sorğuların nəticəsinə və.s. əsasən nəzarət yerinə yetirlir.

2.2.11 Mərkəz və ya regional xidmətləri tərəfindən uçuşların təhlükəsizliyini təmin edən HHİE VS BM-in (xidmətinin) və vəzifəli şəxslərin danışıqlarının, eləcə də radiolokasiya məlumatının məcburi arxivləşdirilməsi (səs və video yazılışı) yerinə yetirilir.

2.2.12 Arxivləşdirilən kanalların siyahısı AXT-nın rəhbəri tərəfindən təsdiqlənir. Arxivləşdirilmənin yerinə yetirilməsi qaydaları MA-nın müvafiq normativ sənədləri ilə təyin edilir.

2.2.13 AXT-nın rəhbər heyəti obyektlərin texniki istismarına və vəziyyətinə nəzarət etmək üçün aşağıdakı müddətlərdən gec olmayaraq yoxlamalar aparırlar:

- İdarənin rəhbəri - ildə 1 dəfə;
- RTAR və HHAİSİ Mərkəzinin rəisi - yarımildə 1 dəfə;

- RTAR və HHAİSİ Mərkəzi rəisinin müavini - rübdə 1 dəfə;
- RTAR və HHAİSİ Mərkəzi üzrə aparıcı mütəxəssislər və regional bölmələrində xidmət rəisləri - ayda 1 dəfə (yazılı);
- Obyekt rəhbərləri –hər gün, həftədə 1 dəfə jurnallarda qeydiyyat aparmaqla.

2.2.14 Aparılan yoxlamaların nəticəsi növbətçi mühəndisin (texnikin) operativ iş jurnalında qeyd olunur.

2.3 RTAR VƏ HHAİS VASITƏLƏRININ VƏ ONLARI İSTISMAR EDƏN TƏŞKILATLARIN DÖVLƏT QEYDIYYATINDAN KEÇMƏSINƏ VƏ SERTIFIKASIYA ALMASINA DAIR TƏLƏBLƏR

2.3.1 Uçuşların radiotexniki və rabitə təminatının bütün radioşüalandırıcı vasitələri Dövlət qeydiyyatından keçməlidir və istismar hüququ verən xüsusi İcazəyə malik olmalıdır.

2.3.2 Radioşüalandırıcı vasitələrə aid radiogöstəricilərin qeydiyyatı müvafiq jurnalda və yaxud elektron formada aparılır.

2.3.3 İstismar hüququ verən İcazə o halda verilir ki, texniki vasitə sınaq növlərinin hamısından keçmiş olsun, avadanlığın növünə görə sertifikata malik olsun və ya MA müəssisələrinin təchizatına qəbul olunmuş olsun, habelə istismar olunacağı obyektin yararlılığa dair sertifikatı olsun.

2.3.4 Texniki vasitələrin dövlət qeydiyyatından keçməsi üçün səlahiyyətli orqan Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyidir.

2.3.5 Texniki vasitənin istismarı üçün İcazə hüququnu verən orqan onun qeydiyyatını aparır, müvafiq İcazənin sahibləri isə həmin icazənin təsir müddətində texniki vasitənin qeydiyyatını aparırlar və qorunub-saxlanılmasını təmin edir.

2.3.6 Verilmiş və qüvvədə olan avadanlığın istismara yararlılıq Vəsiqəsi və istismar hüququ verən İcazə təsir müddəti qurtarana qədər öz qüvvəsini saxlayır.

2.3.7 Radiolokasiya, radionaviqasiya və rabitə vasitələrin istismarı üçün İcazə hüququnun verilməsi məqsədilə ərizəçi müvafiq səlahiyyətli orqana təyin olunmuş qaydada və sübutedici sənədlərlə birgə ərizəni təqdim etməlidir:

- Mərkəzin/Xidmətin təşkilatı strukturu
- Vəzifə təlimatları;
- Personalın şəxsi qeydiyyat vərəqəsi;
- Ştat cədvəli;
- Vasitələrin istismara qəbul aktı;
- Nasazlıq və dayanmalar jurnalından çıxarış və funksional nasazlıqlara dair aktlar;
- Ölçmə cihazlarının metroloji yoxlanılmalarının plan-cədvəli;
- Yerüstü yoxlanışa və köklənməyə dair protokol;
- Uçuşla yoxlanış aktı;

- Radiostansiyanı (radiovericini) istismar etmək hüququna dair icazənin alınması üçün anket.
- Örtülmə bucaqlarına dair cədvəl (AMR, TMR);
- Əsas trass və zonalar üzrə polyar koordinat sistemində AMR və TMR-in təsir dairəsinə dair qrafik;
- Gözləmə zonasında və enməyə daxil olma zonasında AMR-in görünüş zonasının sxemi;
- Obyektin elektrik enerjisi ilə təchizat sxemi (bir xətli təchizat sxemi);
- Vasitənin sertifikatlaşdırılma sənədlərinə uyğunluq cədvəli;
- Radar displeyində (indikatorunda) nəzarət oriyentirinin yerinin qeyd olunduğu fotoşəkil;
- Obyektin UEZ -ə nəzərən yerləşmə planı;
- Aviasiya elektrik rabitə vasitəsinin istismarına hüquq verən İcazəni almaq üçün göstərilən sənədlərdən əlavə olaraq ÇYT diapazonlu aviasiya elektrik rabitə vasitəsinin təsir dairəsinə dair qrafik də əlavə olunur.

Qeyd 1: *Ayrı-ayrı hallarda mövcud Aviasiya Qaydalarının tələblərindən kənara çıxmağa o, şərtlə icazə verilir ki, həmin kənara çıxmalar müvafiq tələblərin ekvivalenti səviyyəsində olan tədbirlərlə əvəz olunsun. Bu cür hallarda RTAR və HHAİSİ Mərkəzi tərəfindən həmin ekvivalentliyin təmin olunmasını təsdiqləyən nəticə hazırlanır və Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyi səviyyəsində təsdiqlənir.*

Qeyd 2: *Sübutedici sənədləri və ərizə , planlaşdırılan sertifikatlaşdırılma tarixindən bir ay əvvəl DMAA-ya təqdim edilir.*

2.3.8 Texniki vasitənin istismarına hüquq verən İcazənin təsir müddəti həmin vasitənin istismar olunma müddətinə (resursuna) uyğundur və aşağıdakı hallarda ləğv edilə bilər:

- İstismar hüququ verən İcazə onu verən orqan tərəfindən ləğv edildikdə və ya onun təsiri dayandırıldıqda;
- Avadanlığın növünə verilmiş Sertifikat ləğv edildikdə və ya onun təsiri dayandırıldıqda;
- Azərbaycan Respublikası Dövlət Aviasiya Agentliyi tərəfindən təşkilatın, qrupun və ya bir texniki vasitənin istismarının ləğv edilməsi və ya dayandırılması haqda qərar qəbul edildikdə;
- Texniki vasitə yeni obyektdə (yeni iş yerində) quraşdırılmaq üçün söküldükdə;
- Texniki vasitə hesabdan (balansdan) silindikdə;
- Texniki vasitə qəzaya uğradıqda;
- Texniki vasitənin quraşdırıldığı obyekt üzrə istismara yararlılıq Sertifikatının təsir müddəti qurtardıqda və ya ləğv edildikdə.

2.3.9 Təsiri dayandırılmış istismar hüququ verən İcazənin təsirinin bərpa olunması istismar hüququ verən İcazənin təsirinin dayandırılması üçün əsas verən səbəblərin aradan qaldırılmasına dair mülkiyyətçinin təqdim etdiyi ərizədən sonra həyata keçirilir.

Qeyd: *Texniki vasitə təmir və bərpa olunduqdan sonra, söküldükdən və yenidən yeni obyektdə (yeni iş yerində) quraşdırıldıqdan sonra da istismar hüququ verən İcazənin bərpa olunması İcazənin yenidən alınmasına bərabərdir.*

2.3.10 RTAR və HHAİSİ Mərkəzi üzrə, radiolokasiya, radionaviqasiya, rabitə və HH AİS obyektlərinin sertifikatlaşdırılması Azərbaycan Respublikasının qanunverici və nizamlayıcı sənədlərinə əsasən Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən həyata keçirilir.

2.3.11 Mərkəz və obyektin istismara yararlılığına dair sertifikatın sahibi, sertifikatın qüvvədə olduğu bütün müddət ərzində, obyektin sertifikatının tələblərə uyğun gəlməsi üçün məsuliyyət daşıyır.

2.3.12 RTAR və HHAİSİ Mərkəzinin ICAO, EUROCONTROL kimi beynəlxalq aviasiya təşkilatları tərəfindən sertifikatlaşdırılması Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən həyata keçirilir.

2.4 RTAR VƏ HHAİS MƏRKƏZININ TEXNIKI İSTISMAR ZAMANI VƏ QƏZA HALLARINDA DIGƏR XIDMƏT VƏ TƏŞKILATLARLA QARŞILIQLI FƏALIYYƏTI

2.4.1 Texniki istismar zamanı Mərkəzin və regional bölmələrində xidmətləri digər xidmət və təşkilatlarla qarşılıqlı fəaliyyət göstərir. Qarşılıqlı fəaliyyət maraqlı tərəflərin razılaşdırdığı və təsdiqlənən sənədlər ilə təyin olunur.

2.4.2 Mərkəzin və regional xidmətlərin istehsalat fəaliyyətinin təmin olunması üçün texniki binalar, tikililər və anbar üçün otaqlar ayrılır. Obyektlər üçün nəzərdə tutulmuş yeni binaların və tikililərin inşa olunması, mövcud bina və tikililərin yenidən qurulması AXT-nın iş planına əsasən yerinə yetirilir.

Obyektlər üçün yeni binaların, tikililərin inşa olunması, yenidən qurulması, onların hasarlanması və yollarının çəkilməsi üçün layihə sənədlərinin işlənib-hazırlanması, layihələrin ekspertizasının keçirilməsi, inşaat, yenidənqurma və təmir işlərinin yerinə yetirilməsi AXT-nın mülki aviasiyanın müəssisələri və digər təşkilatlarla bağladığı müqavilələrə əsasən təşkil olunur və həyata keçirilir.

2.4.3 Aerodrom ərazisində obyektlərə gedən yollar, RMS (Radiomayak sistemləri) obyektlərinin kritik zonalarının və A, B, C, D zonalarının markalanması (işarələnməsi) MA müəssisəsinin aerodrom xidməti tərəfindən aerodrom xidmətində qüvvədə olan rəhbər sənədlərin əsasında yerinə yetirilir.

2.4.4 Obyektlərin elektrik enerjisi ilə təchizatı mərkəzləşdirilmiş elektrik enerji təchizatı mənbələrindən və yerli elektrik yarımstansiyalarından elektrik enerjisinin təchizatı ilə məşğul olan təşkilatlar tərəfindən həyata keçirilir.

Uçuşların elektrik enerji təchizatı (UEET) xidməti və elektrik enerjisinin təchizatı ilə məşğul olan digər təşkilatlar ilə Mərkəz və regional xidmətlər arasında məsuliyyət

"Obyektlərdə elektrik qurğularının istismarı zamanı sahiblik və cavabdehlik sərhəddinin ayrılması haqqında akt" ilə təyin olunur.

2.4.5 Obyektinin əsas elektrik enerji təchizatında çatışmamazlıqlar yarandıqda, növbə mühəndisi (texniki) texniki vasitələrin ehtiyat mənbəyindən qidalanmasını təmin edir, bu haqda uçuş rəhbərinə məruzə edir və elektrik enerji təchizatda olan çatışmamazlıqlar haqqında UEET xidmətinin və ya təchizatçının növbətçi personalını məlumatlandırır.

2.4.6 Qəza vəziyyətində RTAR və HHAİSİ Mərkəzi və digər müəssisələr arasında qarşılıqlı fəaliyyət MA müəssisələrinin xidmətləri arasında qəza vəziyyətində qarşılıqlı fəaliyyətə dair təlimat ilə təyin olunur.

2.4.7 Mərkəzin və regional xidmətlərin mühəndis-texniki heyəti MA müəssisələrinin xidmətləri arasında qəza vəziyyətində qarşılıqlı fəaliyyətə dair təlimatın tələblərini bilməlidirlər və onu təcrübədə tətbiq etməyi bacarmalıdırlar.

2.4.8 Obyektlərində elektrik, rabitə və idarəetmə kabelləri zədələndikdə qəza-bərpaetmə işləri təşkil olunur.

Qəza-bərpaetmə işlərinin yerinə yetirilməsi üçün MA müəssisəsinin müvafiq xidmətinin mütəxəssisləri cəlb olunurlar, iş üçün məsul (cavabdeh) rəhbər təyin olunur, zəruri material, ölçmə vasitələri, alətlər və sənədlər, avtonəqliyyat, maşın və mexanizmlər ayrılır.

2.4.9 Avtomatlaşdırılmış obyektlərin rabitə, idarəetmə və elektrik xətlərinin bərpasına dair işlər həyata keçirildikdə bu obyektlərdə mühəndis-texniki heyətin növbətçiliyi təyin olunur və növbə mühəndisi (texniki) ilə həmin obyekt arasında ehtiyat rabitə təşkil olunur.

Qəza-bərpaetmə işləri başa çatdıqdan sonra növbə mühəndisi(texniki) bu haqda uçuş rəhbərinə məruzə edir və onun icazəsi ilə avtomatlaşdırılmış obyektinin məsafədən idarə olunması və ya əsas elektrik enerji mənbəyindən qidalandırılması üçün obyektin mühəndis-texniki heyətinə göstəriş verir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

3 ETİBARLILIQ GÖSTƏRİCİLƏRİ

3.1 TEXNIKI VASITƏLƏRIN İŞI

3.1.1 Texniki vasitələrin iş keyfiyyəti həmin vasitənin təyinatı üzrə nəzərdə tutulmuş funksiyalarını yerinə yetirməsi xüsusiyyətləri ilə təyin olunur. Bunlardan biri də havadakı hərəkətin təhlükəsizliyini müəyyən edən etibarlılıq xüsusiyyətidir.

3.1.2 Texniki vasitələrin işinin etibarlılığı həmin vasitənin imtinasızlığı, təmirə yararlılığı, uzunömrlülüyü və öz funksiyalarını qoruyub-saxlaması kimi xüsusiyyətlərinin kompleks formasıdır və aşağıdakı digər xüsusiyyətlərlə də təyin olunur:

- sxemli-konstruktiv yığımın və istifadə olunmuş elementlərin keyfiyyəti ilə;
- avtomatlaşdırılma və ehtiyatlanma dərəcəsi ilə;
- elektrik enerjisi, rabitə və idarəetmə xətlərinin etibarlılığı ilə;
- texniki istismarın təşkil olunması, texniki xidmətin və təmirin keyfiyyəti ilə, mühəndis-texniki heyətin peşə hazırlığı və intizamın səviyyəsi ilə;
- istismar şəraiti (şərtləri) ilə: elektromaqnit şərait, iqlim və meteoroloji amillər ilə, ionosferdən radiodalğanın keçilməməzliyi və sairə hallar ilə;
- daşınma və qorunub-saxlanma şəraiti (şərtləri) ilə.

3.1.3 Texniki vasitələrin imtinasızlığı imtinanın (zədələnmənin) saathesabına görə orta qiyməti ilə hesablanır.

3.1.4 İmtinanın (zədələnmənin) saathesabına görə orta qiyməti isə düsturla müəyyən olunur:

$$T_o = T_{cəm} / n \quad , \text{ bu zaman } \quad n = 1,2,3,...$$

Burada,

T_o - imtinanın (zədələnmənin) orta saathesabı işidir, (saatlarla ölçülür);

$T_{cəm}$ - müəyyən dövr ərzində texniki vasitənin (eyni növ vasitələrin) imtinasının (zədələnmənin) cəmlənmiş saathesabı işidir. (saatlarla ölçülür);

n - həmin dövr ərzində texniki vasitənin (eyni növ vasitələrin) imtinalarının (zədələnmələrinin) sayıdır.

3.1.5 Texniki vasitələrin təmirə yararlılığı dedikdə, onun iş qabiliyyətinin bərpa olunması üçün lazım olan vaxtın orta qiyməti başa düşülür.

3.1.6 İş qabiliyyətinin bərpa olunması üçün lazım olan vaxtın orta qiyməti isə göstərilən düsturla müəyyən olunur:

$$T_B = T_{B.cəm} / n \quad , \text{ bu zaman } \quad n = 1,2,3,... \ ,$$

düsturundan istifadə edilir.

Burada,

T_B - texniki vasitə üçün bərpa olunmanın orta qiymətidir.

$T_{B.cəm}$ - hesabat dövründə texniki vasitənin (eyni növdən olan vasitələr qrupunun) iş qabiliyyətinin bərpasi üçün cəmlənmiş vaxtdır.

Texniki vasitələrin iş qabiliyyətinin bərpa olunması üçün lazım olan vaxta həmçinin imtinanın (zədələnmənin) səbəbini axtarmaq üçün və imtinanın (zədələnmənin) nəticələrinin aradan qaldırılması üçün lazım olan vaxt da daxildir. İş qabiliyyətinin bərpa olunması zamanı təşkilati dayanmalar ayrıca hesablanır.

3.1.7 Texniki vasitələrin etibarlılığı uçuşların təhlükəsizliyi üçün qoyulan tələblərlə müəyyən edilir və onların işlənib-hazırlanması, istehsalı zamanı nəzərə alınır, habelə istismar dövründə də bu həddə daxilində saxlanılır.

3.1.8 Texniki vasitələrin uzunömürlülüyü istismarın başlanğıcından olan saathesabı işini (resursunu), istismarın təqvimli davamiyyətini və ya onun təmirdən sonrakı işinin bərpa olunmasından hesabdan (balansdan) silinməsinə qədər olan müddəti göstərən xüsusiyyəti müəyyən edir.

Uzunömürlülük göstəriciləri vasitənin formulyarında (pasportunda) göstərilir və istismar müddətində təcrübələrin əsasında dəqiqləşdirilə bilər.

3.1.9 Texniki vasitələrin işə qoşulma, işdən açılma və işləmə müddəti zamanı işin saathesabı qeydiyyatı nəzərə alınmalıdır.

İşin saathesabı qeydiyyatı vasitənin elektrik təchizatını idarə edən avadanlığın “Qoşulub” vəziyyətinə çevrildiyi (qoşulduğu) andan başlanır. İşin saathesabı qeydiyyatı aşağıdakı kimi aparılır:

- Saygacla təmin olunmuş vasitələrdə saygacın göstəricisinə əsasən;
- Yüklənmiş və yüklənməmiş ehtiyata malik olan vasitələrdə nisbətən çox saathesabına malik olan (əsas və ya ehtiyat) sayğacın (istehsalçı-zavod tərəfindən nəzərdə tutulubsa) göstəricisinə əsasən;
- Yüklənməmiş ehtiyata malik olan vasitələrdə sayğacların (istehsalçı-zavod tərəfindən nəzərdə tutulubsa) cəmlənmiş göstəricilərinə əsasən;

3.1.10 İstismar müddətində texniki vasitələrin imtinasızlıq, təmirə yararlılıq və uzunömürlülük göstəriciləri imtinaların və zədələnmələrin, eləcə də onların yaranma səbəblərinin statistik təhlillərinin nəticəsinə görə qiymətləndirilir.

3.1.11 Texniki vasitələrin imtinasının, zədələnmələrinin təhlili və qeydiyyatı aşağıdakı məqsədlər üçün yerinə yetirilir:

- Seriyalı istehsala malik olan vasitələrin istismarının nəticələrinə görə etibarlılığın qiymətləndirilməsi üçün;
- İmtinaların və zədələnmələrin səbəbinin təhlili, yenicə hazırlanan və seriyalı istehsal olunan Texniki vasitələrin etibarlılığının artırılmasına yönəldilmiş təkliflərin və tədbirlərin işlənib-hazırlanması və həyata keçirilməsi üçün;
- Texniki xidmətin, təmirin həcminin və dövriliyinin optimallaşdırılması üçün;
- İstismar və təmir sənədlərinin təkmilləşdirilməsi üçün;
- Tərkib hissələrinin və ehtiyat hissələrin məsrəfinin optimallaşdırılması üçün;
- İstismar olunan texniki vasitələrin resursunun (xidmət müddətinin) əsaslandırılması üçün;
- Zəmanətli təminatda olan texniki vasitələrin iş qabiliyyətinə zəmanət nəzarətinin

aparılması üçün.

3.1.12 Bütün imtinalar və zədələnmələr, onların səbəbləri və iş qabiliyyətinin bərpa olunması üçün sərf olunan vaxt texniki vasitənin formulyarında və ya pasportunda qeyd olunmalıdır.

3.1.13 Texniki vasitələrin xidmət müddəti ərzində hər il vasitənin imtinasına və zədələnmələrinə dair toplayıcı cədvəl doldurulur və texniki vasitəsinin imtinasızlıq göstəricilərinin təhlil olunması üçün istifadə edilir.

3.2 RTAR və HHAİS VASITƏLƏRININ EHTIYATLANMASI

3.2.1 Texniki vasitələrin işində uçuşların təhlükəsizliyi nöqteyi nəzərindən buraxıla bilən fasilənin təmin oluması məqsədi ilə ehtiyatlanmadan istifadə edirlər.

Bütün texniki vasitələr,elektrik və rabitə xəttləri 100%-li ehtiyatlanmaya malik olmalıdır.

3.2.2 Meteokanalı çıxmaq şərti ilə hər bir ÇYT diapazonlu aviasiya hava rabitəsi kanalı özünün əsas və ehtiyat dəstdən ibarət verici və qəbuledici qurğusuna (və yaxud da qəbuledici/verici qurğusuna) anten-fider sistemi ilə birlikdə malik olmalıdır. Meteo kanal verici qurğuya münasibətdə anten-fider sistemi ilə birlikdə əsas və ehtiyat verici dəstlə təmin olunmalıdır.

3.2.3 Aviasiya hava elektrik rabitəsinin digər kanalları üçün ehtiyat avadanlığın sayı $K_{eht} = \sqrt{K_{frk}}$ düsturla təyin olunur

Burada,

K_{eht} - ehtiyat vasitələrin sayı;
K_{frk} - fəaliyyət göstərən rabitə kanalları.

3.2.4 Ehtiyat radiostansiyalar daima işləyən (əsas) vasitənin radiotezliyinə köklənməlidir.

3.2.5 Elektron formada sənədləşdirməni (arxivləşdirməni) yerinə yetirmək üçün istismar olunan qeydiyyat avadanlıqlarından əsas/ehtiyat prinsipi ilə istifadə edilməlidir.

3.2.6 Texniki vasitələrin istismarı zamanı əsas və ehtiyat vasitələr üçün bərabər saathesablı istismarın planlaşdırılması məsləhətdir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

4 RTAR VƏ HHAİS OBYEKTLƏRİNİN TEXNİKİ İSTİSMARI

4.1 RTAR və HHAİS Obyektlərinin Texniki İstismarının Təşkili

4.1.1 RTAR VƏ HHAISİ Mərkəzinin əsas məqsədi, müəyyən edilmiş normativ məqsədi, müəyyən edilmiş normativ inzibati sənədlərin və istismar sənədlərinin tələblərinə uyğun olaraq RTAR VƏ HHAIS vasitələrinin texniki istismarının planlaşdırılması, təşkili və həyata keçirilməsidir.

4.1.2 RTAR VƏ HHAISİ Mərkəzin təşkilati quruluşu mərkəzin rəhbərliyindən, təşkilati-texniki şöbədən,regional xidmətlərdən və istismar obyektlərindən ibarətdir .

4.1.3 Obyektlərin texniki istismarı həmin obyektlərdə quraşdırılmış texniki vasitələrin xidmət müddəti üçün müəyyən olunmuş etibarlılıq səviyyəsinin təmin olunmasına yönəldilmiş təşkilati və texniki tədbirlərin kompleksidir.

4.1.4 Texniki vasitələrin istismarı aşağıdakılardan ibarətdir:

- İstismara verilməsi;
- Texniki xidmət;
- Təmir;
- Əlavə işlərin görülməsi;
- Xidmət müddətinin (resursunun) artırılması;
- Yerüstü və uçuşla yoxlanışların yerinə yetirilməsi;
- Mühəndis-texniki heyətin peşə səviyyəsinin və hazırlığının artırılması;
- Texniki xidmətin və təmirin metroloji təminatı;
- Texniki vasitələrin işinin təhlili;
- Material- texniki təchizat;
- İstismar sənədlərinin siyahıya uyğun aparılması*;*
- Əməyin mühafizəsinə və yanğından mühafizəyə dair tədbirlər.

4.1.5 Obyektlərin texniki istismarının mövcud Aviasiya Qaydaların və istismar sənədlərinin tələblərinə, habelə texniki vasitələr üzrə sertifikatlaşmanın tələblərinə uyğun gəlməsi üçün nəzarəti DMAA yerinə yetirir:

4.2 OBYEKTLƏR ÜZRƏ İŞIN TƏŞKIL OLUNMASI

4.2.1 HG uçuşlarının təhlükəsizliyinin və obyektlərin etibarlı işinin təmin olunması məqsədi ilə RTAR və HHAİS Mərkəzində və regional bölmələrdə radiolokasiya, radionaviqasiya aviasiya elektrik rabitəsi mütəxəssislərindən ibarət mühəndis-texniki heyətin növbəli işi təşkil olunur.

4.2.2 RTAR və HHAİSİ Mərkəzinin növbə mühəndisi və obyektlərin mühəndis-texniki personalı öz fealiyyətində təsdiq olunmuş vəzifə təlimatını rəhbər tutmalıdır.

4.2.3 *Ehtiyat saxlanılıb.*

4.2.4 Növbə mühəndisi texniki vasitələrin işində HG uçuşlarının təhlükəsizliyinə təsir edə bilən bütün dəyişikliklər haqqında uçuş rəhbərinə və RTAR və HHAİSİ Mərkəzinin rəhbərliyinə məlumat verməyə borcludur.

4.2.5 Növbə mühəndisi şəraitdən asılı olaraq texniki vasitələrə planəsasən obyektlərdə texniki xidməti və təmirin yerinə yetirilməsini təmin edir.

4.2.6 *Ehtiyat saxlanılıb.*

4.2.7 Növbə mühəndisin iş yeri avtomatlaşdırılmış obyektlərin məsafədən idarə edilməsi və onların işinə məsafədən nəzarət olunması üçün müvafiq vasitələrlə təmin olunmalıdır.

4.2.8 Növbə ərzində növbə mühəndisin sərəncamında radiolaşdırılmış növbətçi avtomobil olmalıdır.

4.2.9 Bütün sistem və vasitələrin işindəki iradlar növbə mühəndisinin jurnalında yazılmalıdır.

4.2.10 Növbətçi mühəndis-texniki heyət texniki vasitələrin fasiləsiz və keyfiyyətli işi üçün, texniki xidmətin keyfiyyəti və istismar sənədlərinin düzgün doldurulmasına görə məsuliyyət daşıyır.

4.2.11 Obyektin rəhbəri və ya onu icra edən şəxs öz vəzifə təlimatına əsasən ona həvalə olunmuş obyektdə mütəxəssislərin işinin və texniki istismarın təşkilinə görə məsuliyyət daşıyır.

4.2.12 Texniki vasitələrin iş qabiliyyətinin korlandığı zaman obyektlərin növbətçi mühəndis-texniki heyətin iş fəaliyyəti ehtiyatlamaya dair təlimatlarla tənzimlənir və aşağıdakıları özündə birləşdirir:

- Ehtiyatlamaya dair yerli təlimatlarda göstərilən normativ vaxt ərzində işin ehtiyat vasitəsinə, ehtiyat elektrik enerji mənbəyinə və ehtiyat rabitə kanalına qoşulmasını təmin edir;
- Baş vermiş hadisə və görülmüş tədbirlər haqqında növbə mühəndisinə məruzə edir;
- Obyektdə növbətçi mühəndis-texnikin operativ iş jurnalında obyektin (texniki

vasitələrin, proqram təminatının və rabitə kanalının) işində yaranmış fasilənin başlanğıcı və sonunu göstərən vaxtı, habelə onu yaradan səbəbləri qeyd edir;

- Obyektin (texniki vasitələrin, proqram təminatının və rabitə kanalının) iş qabiliyyətinin pozulmasının səbəblərini tapır və aradan qaldırır, şəraitə uyğun olaraq digər işləri yerinə yetirir;
- Bərpa işləri qurtardıqdan sonra obyektin növbətçi mühəndis-texniki növbə mühəndisinə obyektin iş qabiliyyətinin bərpa olunmasına dair məruzə edir.

4.2.13 Növbəni qəbul edərkən mühəndis-texniki heyətin vəzifə borcudur ki:

- İstismar olunan texniki vasitələrin əsas və ehtiyat dəstlərinin mövcudluğunu, vəziyyətini və iş qabiliyyətini yoxlasın;
- Ehtiyat elektrik enerji mənbələrinin işə hazırlığını yoxlasın;
- Siyahı əsasında əmlakın, istismar sənədlərinin, alətlərin, nəzarət-ölçü cihazlarının, operativ istifadə üçün nəzərdə tutulmuş ehtiyat hissələrin mövcudluğunu yoxlasın;
- Fərdi mühafizə vasitələrinin mövcudluğunu və işə yararlılığını, bədbəxt hadisələr zamanı ilk yardım göstərmək üçün ilk yardım qutusunun mövcudluğunu və vəziyyətini yoxlasın;
- Yanğından mühafizə vasitələrinin mövcudluğunu və işə yararlılığını yoxlasın;
- Otaqlarda temperatur rejiminin uyğunluğunu yoxlasın.

4.2.14 Növbətçi mühəndis-texniki heyət onlardan əvvəlki növbə zamanı obyektə daxil olmuş bütün iradlar, göstərişlər və sərəncamlarla tanış olmağa borcludur.

4.2.15 Obyektdə növbənin təhvil-təslimi obyektin növbətçi mühəndisinin (texnikinin) operativ iş jurnalında aparılan yazılı qeydlərlə yerinə yetirilir və növbənin təhvil-təslimi haqda müvafiq qaydada növbə mühəndisinə məruzə edilir.

4.2.16 Növbə mühəndisi HHİE xidmətinin keçirdiyi təlimatlandırmada iştirak etməyə və orada məruzə etməyə borcludur, zərurət yarandıqda isə HHİE xidmətinin keçirdiyi araşdırmalarda da iştirak edə bilər.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

5 RTAR VƏ HHAİS OBYEKTLƏRİNİN VƏ TEXNİKİ VASİTƏLƏRİNİN İSTİSMARA VERİLMƏSİ

5.1 OBYEKT VƏ TEXNIKI VASITƏLƏRIN İSTISMARA VERILMƏSINƏ DAIR İŞLƏRIN TƏŞKILI

5.1.1 Obyektlərin istismara verilməsi özündə aşağıdakıları birləşdirir:

- Layihələndirmə üçün ilkin tələblərin və tapşırıqların işlənib-hazırlanmasını;
- Obyektlərin yerinin təyin olunması üçün axtarış işlərinin yerinə yetirilməsini;
- Layihələndirmənin yerinə yetirilməsini;
- Layihə sənədləri üzrə dövlət ekspertizalarının keçirilməsini;
- Layihə sənədlərinin baxılması və təsdiqlənməsini;
- Materialların, kabellərin, avadanlıqların, habelə qeyri-standart avadanlıqların işlənib-hazırlanması və əldə olunması üçün tələbnamələrin hazırlanmasını;
- Podratçı tikinti-quraşdırma təşkilatları və təchizatçı təşkilatlar ilə müqavilələrin bağlanmasını;
- Obyektinin tikintiyə hazırlığının təmin olunmasını;
- Tikinti və quraşdırma-sazlama işlərinin yerinə yetirilməsi zamanı texniki nəzarətin aparılmasını;
- Yeni obyektlərin istismara verilməsinə dair işlərin planlaşdırılması;
- Obyektinin yerüstü və uçuşla yoxlanışının yerinə yetirilməsini;
- Obyektində istismara verilən radioşüalandırıcı vasitələrin dövlət qeydiyyatından keçirilməsini;
- Obyektinin sertifikatlaşdırılmasını.

Qeyd:

1. *Layihə sənədləri dedikdə obyektlərin tikintisi, yenidən quraşdırılması və texniki cəhətdən yenidən təchiz olunması üçün işçi sənədlərin və texniki istismar tələblərinin işlənib-hazırlanması başa düşülür.*

2. *Bundan sonrakı 5.1.2. və 5.1.4. bəndlərində tikinti, yenidənquraşdırma və texniki cəhətdən yenidən təchiz olunma kimi anlayışlar qısaca olaraq tikinti adı altında veriləcək.*

5.1.2 Obyektlərin istismara verilməsinə dair işlərin planlaşdırılması, avadanlığın sifariş verilməsi qaydaları, obyektlərin tikintisi üçün layihə-smeta sənədlərinin işlənib-hazırlanması, ekspertizaların keçirilməsi, tikinti-quraşdırma işlərinin təşkil olunması, yerüstü və uçuşla yoxlanışlara görə məsuliyyət və obyektin istismara verilməsi MA-dakı normativ sənədlərlə və ICAO-nun standartları ilə təyin olunur.

5.1.3 AXT üzrə yeni obyektlərin tikilməsi, vasitələrin dəyişdirilməsi və modernləşdirilməsinə dair tələbatlar İdarənin perspektiv inkişaf planları və ICAO-nun inkişaf planları ilə təyin olunur.

5.1.4 Yeni obyektlərin və vasitələrin tətbiqi AXT-nınrəhbərliyinin və təyin olunmuş layihə rəhbərinin nəzarəti altında AR qanunlarına və beynəlxalq tələblərə riayət olunmaqla həyata keçirilir.

5.1.5 Obyektlərin tikintisi zamanı RTAR və HHAİSİ Mərkəzi aşağıdakı qaydada iştirak edir:

- Layihələndirilmə üçün ilkin tələblərin və texniki tapşırığın tərtib olunmasında, obyektlərin yerinin təyin olunması üçün axtarış işlərində, ekspertizaların keçirilməsində, tikinti üçün layihə-smeta sənədlərinin razılaşdırılmasında və avadanlığın təchizatı üzrə tələbnamələrin hazırlanmasında;
- Obyektlərdə tikinti-quraşdırma, sazlama işlərinin yerinə yetirilməsində və texniki vasitələrin quraşdırılması zamanı texniki nəzarətin həyata keçirilməsində.

5.1.6 İstismara verilən və ya yenidən quraşdırılan obyektlərdə yararlılığa dair sertifikatın alınması üçün sənədlərin hazırlanmasında.RTAR və HHAİS Mərkəzin öz obyektlərinin ərazisində torpaq və tikinti işlərinin keçirilməsini razılaşdırır və bu kimi işlərin yerinə yetirilməsi zamanı XKQ-nin və AFQ-nin zədələnməməsi üçün nəzarəti təşkil edir.

5.1.7 Yeni tikilmiş (yenidən quraşdırılmış) obyekt sertifikatlaşmanın tələblərinə uyğun gəlməlidir.

5.1.8 Texniki vasitələrin quraşdırılması və sazlanması ixtisaslaşdırılmış quraşdırma təşkilatları tərəfindən, istehsalçı-müəssisə və ya Mərkəzin mütəxəssisləri tərəfindən təsdiq olunmuş müvafiq layihə əsasında yerinə yetirilir.

5.1.9 Fəaliyyətdə olan obyektdə yeni (dəyişdirilmiş) texniki vasitənin istismara verilməsi zamanı zərurət yarandıqda obyektin layihə və digər sənədlərində də dəqiqləşdirilmələr aparılır.

5.1.10 Fəaliyyətdə olan obyektin tərkibinə daxil olan hər bir texniki vasitənin istismara qəbul olunması AXT-nın rəhbərinin təyin etdiyi komissiya tərəfindən həyata keçirilir, komissiyanın işinin nəticələri aktla təsdiq olunur və AXT-nın rəhbərinin həmin vasitənin istismara qəbul olunmasına dair əmri qüvvəyə minir.

5.1.11 Yeni obyektin istismara verilməsi obyektin tikinti hazırlığına dair aktın əsasında və eyni zamanda texniki vasitələrin istismara qəbul olunmasına dair aktın əsasında AXT-nın rəhbərinin verdiyi əmrə əsasən həyata keçirilir.

5.1.12 Obyektin tərkibindəki vasitələrin dəyişdirilməsi həmin obyektin mütləq yenidən sertifikatlaşdırılmasını tələb edir.

5.1.13 Xüsusi texniki vasitələrin istismara verilməsi ixtisaslaşdırılmış podratçı təşkilatlar və istehsalçı müəssisələr tərəfindən AXT ilə bağlanmış müqavilə əsasında aparılır.

5.1.14 Əvvəllər AXT-da istismarda olmayan yeni növ texniki vasitələri üzrə istismar, texniki xidmət və təmir qaydalarının mənimsənilməsinə (öyrənilməsinə) görə RTAR və HHAİSİ Mərkəzinin mühəndis-texniki heyətinə maddi mükafat təyin olunur.

5.2 AR VƏ HHAİS OBYEKTLƏRININ ƏSASLI TIKINTISI ZAMANI İŞIN GEDIŞATINA NƏZARƏT

5.2.1 Obyektlərinin əsaslı tikintisi zamanı işin gedişatına nəzarət AXT rəhbərinin əmri ilə təyin olunmuş Mərkəzin hazırlıqlı və xüsusi olaraq seçilmiş mühəndis-texniki heyəti tərəfindən həyata keçirilir.

5.2.2 Əsaslı tikintinin gedişatına nəzarət etmək üçün təyin olunan mühəndis-texniki heyət layihə sənədlərinin, tikinti və quraşdırma işlərinin yerinə yetirilməsi üçün normativ tələbləri öyrənməlidir, işin təsdiqlənmiş plan-qrafiki üzrə surətinə malik olmalıdır, tikinti və quraşdırma işlərinin keyfiyyətlə və vaxtında yerinə yetirilməsinə təsir edən konkret şərtləri bilməlidir, əməyin mühafizəsi və yanğından mühafizəyə dair rəhbər sənədlərin tələblərini bilməlidir.

5.2.3 Mərkəzindən nəzarət etmək məqsədilə təyin edilmiş mühəndis-texniki heyət yerinə yetirilən quraşdırma işlərinin keyfiyyətinə və həmin işlərin layihə sənədlərinə uyğun olmasına nəzarət edirlər.

5.3 DÖVLƏT İSTISMAR SINAQLARI

5.3.1 Texniki vasitənin yeni nümunələrinin dövlət və istismar sınaqları Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyiının təyin etdiyi komissiya tərəfindən həyata keçirilir.

5.3.2 Texniki vasitənin sınağının həcmi MA üzrə Dövlət Orqanı olan Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən əmr ilə təyin olunmuş komissiyanın təsdiqlədiyi sınağın proqram və metodikası ilə təyin olunur.

5.3.3 Texniki vasitənin düzgün quraşdırılması üçün yerinə yetiriləcək işlər avadanlığın gətirilməsi və quraşdırılmasına dair müqaviləyə əsasən həmin avadanlığın layihəçilərinə, istehsalçılarına və quraşdırıcı təşkilatlara həvalə olunur.

5.3.4 Sınaqların gedişatında komissiya texniki vasitənin nümunəsinə dair çatışmamazlıq və qüsur aşkarladıqda onun aradan qaldırılması üçün layihələndirici və ya istehsalçı müəssisəyə təqdimat verir.

5.3.5 Layihəçi və ya istehsalçı müəssisə komissiyanın təqdim etdiyi çatışmamazlıqlara dair tədbirlər planı işləyib hazırlayır və sifarişçi ilə razılaşdırdıqdan sonra təsdiq edir.

Sınaqların keçirilməsi zamanı yubanmaların ixtisara salınması məqsədi ilə layihəçi və istehsalçı müəssisə göstərilən çatışmamazlıqların aradan qaldırılması üçün AXT-nə vasitənin ilkin sınağını keçirmiş mütəxəssislərdən ibarət işçi qrupu göndərir.

İstehsalçı müəssisə bu işçi qrupu ehtiyat hissələrlə, tamlaşdırıcı (dəstləşdirici) vasitələrlə, nəzarət ölçü cihazları və materiallar ilə təmin edir

5.3.6 Yeni texniki vasitənin sınağını keçirən AXT aşağıdakıları yerinə yetirməyə borcludur:

- İstehsalçı müəssisə ilə razılıq əsasında mütəxəssislər ayırsın və onların sınağı keçirilən vasitənin texniki istismarına hazırlanmalarını təmin etsin;
- Texniki xidmət üçün zəruri texniki vasitələrlə təmin etsin (həmin vasitələr AXT-da olmadığı təqdirdə bu vasitələr istehsalçı-müəssisə tərəfindən təqdim olunur);

- Sınaq metodikası və proqramına əsasən texniki xidməti yerinə yetirsin;
- Sınaq müddətində baş vermiş imtinaların və zədələnmələrin qeydiyyatını aparsın, istismar sənədlərində baş vermiş hadisənin səbəblərinin təhlil edilməsi, zədələnmənin təmir olunmayan elementə qədər lokallaşdırılması və imtina etmiş elementin dəyişdirilməsi üçün kifayət qədər məlumatın olmasına çalışsın;
- Komissiyanın qərarı ilə istehsalçı müəssisənin nümayəndələrinin rəhbərliyi altında digər zəruri işləri yerinə yetirsin.

5.3.7 Dövlət sınağının keçirilməsinə dair aktda sınaqdan keçmiş texniki vasitənin seriyalı istehsala verilməsi və "AXT-nın təchiz olunması, habelə bundan sonra da nümunə vahidinin tətbiq olunmasının mümkünlüyü barədə qərar çıxarılır.

İstismar sınaqlarının keçirilməsinə dair aktda komissiya texniki vasitənin istismara qəbul olunmasının mümkünlüyünə dair qərar çıxardır və lazım gəldikdə sınaq müddətində qeyd olunan çatışmamazlıqların aradan qaldırılmasına dair tədbirlər planı işləyib-hazırlayır.

5.3.8 Texniki vasitənin yeni nümunələrinin istismara verilməsi istismar sınaqları başa çatdıqdan sonra AXT rəhbərinin əmri ilə həyata keçirilir.

5.3.9 Texniki vasitənin yeni nümunələrinin dövlət və istismar sınağı müddətində həmin vasitədən HG uçuşlarının təmin olunmasında əsas vasitə kimi istifadə etmək qadağandır.

6 RTAR VƏ HHAİS VASİTƏLƏRİNƏ TEXNİKİ XİDMƏT

6.1 RTAR VƏ HHAİS VASITƏLƏRINƏ TEXNIKI XIDMƏTIN TƏŞKIL OLUNMASI

6.1.1 Texniki vasitələr üçün tələb olunan etibarlılığın və istismar göstəricilərinin təyin olunmuş həddə və normalar daxilində saxlanılması və tədricən baş verən imtinaların proqnozlaşdırılması məqsədi ilə texniki vasitələrə TX keçirilməsi təşkil olunur və mühəndis-texniki heyəti tərəfindən yerinə yetirilir.

6.1.2 Texniki vasitələrə TX reqlamentlərin dövriliyi və həcmi istehsalçı-müəssisə (təchizatçı) tərəfindən təsdiqlənmiş istismara dair təlimatlara əsasən yerinə yetirilir.

6.1.3 TX reqlamentləri olmayan texniki vasitələr üçün yerlərdə mühəndis-texniki heyət tərəfindən reqlamentlər işlənib-hazırlanır və AXT-nın rəhbəri tərəfindən təsdiq olunur.

6.1.4 Texniki vasitələrə TX keçirilərkən (rabitə kanalının) və ya ayrıca olaraq texniki vasitənin vəziyyətinə nəzarətin dövriliyinin və həcminin reqlamentləşdirilməsi obyektin üçün onun parametrlərinə dövri nəzarətin texniki xidməti nəzərdə tutulur. TX-nın həcmi obyektin (rabitə kanalının) və ya ayrıca vasitənin normal işinin təmin olunması ilə təyin olunur.

6.1.5 Texniki vəziyyət (iş qabiliyyətli və saz olmaq) təyinedici parametrlərin qiymətləri üçün aparılan nəzarətin nəticələri ilə və yerinə yetirilən tapşırığın keyfiyyətini səciyyələndirən əlamətlərlə qiymətləndirilir.

6.1.6 Təyinedici parametrlərin qiyməti nominal (tələb olunan) qiymətin buraxıla bilən həddindən kənara çıxdıqda həmin göstəricilərin təyin olunan qiymətə uyğunlaşdırılması yerinə yetirilir.

Buraxıla bilən qiymətin həddi təyinedici parametr üçün istismar həddinin yuxarı və ya aşağı qiymətinin 0,7 səviyyəsinə uyğundur.

6.1.7 Dövri texniki xidmət;

- Həftəlik (TX-2, 170 saatlıq saathesabından sonra);
- Aylıq (TX-3, 750 saatlıq saathesabından sonra);
- Rüblük (TX-4, 2250 saatlıq saathesabından sonra);
- Yarımillik (TX-5, 4500 saatlıq saathesabından sonra);
- İllik (TX-6, 8000 saatlıq saathesabından sonra).

6.1.8 Texniki vasitə üçün dövri TX-nin keçirilmə müddəti saathesabı işi göstərilən müddətə münasibətdə az olduqda, onda dövri TX-nin texniki vasitənin təqvimə olaraq yerinə yetirilməsinə icazə verilir.

6.1.9 Vasitənin iş qabiliyyətinə təyin olunmuş nəzarət onun iştismar müddətində həyata keçirilir. İş qabiliyyətinə operativ nəzarət zamanı çıxış xüsusiyyətlərinə (əlamətlərinə), telemexanika siqnallarına əsasən obyektin (rabitə kanalının) iş qabiliyyəti və sonradan onun təyinatı üzrə istifadə edilmə imkanları təyin olunur.

6.1.10 TX-1 birbaşa olaraq obyektdə yerinə yetirilir. TX-1 yerinə yetirilərkən vasitənin texniki vəziyyətinə ümumi nəzarət keçirilir, əsas, ehtiyat və köməkçi avadanlıqların (əsas və ehtiyat elektrik qida mənbələrinin), AFQ-nin, rabitə və idarəetmə xətlərinin, mühafizə və

yanğın siqnallama sisteminin) iş qabiliyyəti təyin olunur, ərazinin və otaqların vəziyyəti qiymətləndirilir.

TX-1 yerinə yetirilməsi üçün obyektlərin rəhbərləri tərəfindən müvafiq marşrut və texnoloji xəritələr hazırlanır və Mərkəz və ya xidmət rəhbəri tərəfindən təsdiqlənir.

ÇYT diapazonlu radioverici qurğulara texniki xidmət keçirilərkən antena ekvivalenti və ya güc söndürücüsünün köməyi ilə köklənmə və tənzimlənmə işləri aparılır.

Qəza radiokanalında işləyən radiostansiyanın iş qabiliyyəti "Yaxınlaşma" (APP1) və (və ya) "Rayon Mərkəzi" (ACC1 və ACC2) kanallarının işçi tezliyində həftədə bir dəfədən az olmayaraq yoxlanılır.

6.1.11 TX-nın növü, dövriliyi, reqlament işlərinin siyahısı, onların yerinə yetirilmə texnologiyası, icraçıların ixtisaslaşma səviyyəsi, əmək sərfi, zəruri olan ölçmə vasitələri, sərf olunan material, alət, təyinedici parametrlərin (əlamətlərin) nominal qiyməti, onların istismar və buraxılabilən qiymətləri texniki xidmətə dair təlimatda (texniki xidmət reqlamentində) göstərilir.

6.1.12 TX reqlamentlərində onların konstruktiv və etibarlılıq xüsusiyyətlərindən asılı olaraq texniki xidmətin növləri (TX-2 ÷ TX-6) bütün olmaya da bilər.

6.1.13 Radiolokasiya, radionaviqasiya, aviasiya elektrik rabitəsi və HH AİS vasitələrinə texniki xidmət HHİE xidməti ilə razılaşdırılmış və AXT-nın rəhbəri tərəfindən təsdiqlənmiş "Texniki vasitələrə texniki xidmətinə dair cədvəl"-ə əsasən yerinə yetirilir.

Digər texniki vasitələr üçün TX cədvəli müvafiq aparıcı mütəxəssislər və ya xidmət rəhbəri tərəfindən təsdiqlənir.

6.1.14 TX cədvəllərinin tərtib olunması üçün ilkin tələbatlar belədir:

- Reqlamentlərdə və ya istismara dair təlimatlarda göstərilən texniki xidmət üzrə işin həcmi və dövriliyi;
- Radiolokasiyanın və radionaviqasiyanın trass vasitələrinin dayandırılmasının plan-qrafiki;
- Texniki vasitənin uçuşla yoxlanışının təsdiq olunmuş planı.

6.1.15 TX planlaşdırılarkən və yerinə yetirilərkən həmin növ texniki xidmətin dövriliyindən asılı olaraq texniki xidmətin başlanğıcından olan meyletmələr ±15% təşkil edə bilər.

6.1.16 Texniki vasitələrin işində boşdayanmaları aradan qaldırmaq məqsədi ilə texniki xidmətin mərhələli üsulu seçilir. Bu üsul zamanı əməliyyatlar növbə ilə (zamana görə fərq yaratmaqla) əsas və ehtiyat dəstlərdə yerinə yetirildiyindən obyekt bütövlükdə işdən açılmır. HH AİS TV-nin işinin fasiləsiz olması üçün ehtiyatlama tədbirlərindən istifadə edilir və bu vaxt radiolokasiya mövqeyində radar stansiyasının birkanallı iş rejimində işləməsinə icazə verilir. Texniki xidmət mərhələli keçirilərkən həmin texniki xidmətin növü üçün nəzərdə tutulmuş reqlament işlərinin bütün həcmi təxminən bərabər hissələrə bölünür. Bölünmüş hissələrin həcmi elə təyin olunmalıdır ki, həmin işlər yerinə yetirilərkən AXT-da işçilər üçün təyin olunmuş iş vaxtının qurtarmasına ən azı 1 saat qalmış işlər yekunlaşdırılsın.

6.1.17 Texniki xidmətin keçirilən zaman mühəndis-texniki heyətin bərabər yüklənməsi məqsədilə işin həcminin bərabər paylanması məsləhət görülür.

6.1.18 Paylanmış əmək sərfini əks etdirən texniki xidmətin illik cədvəli tərtib olunmalıdır.

6.1.19 Texniki xidmətin illik qrafikinin əsasında obyektin mühəndis-texniki heyətinin aylıq iş planı tərtib olunmalıdır.

6.1.20 Texniki xidmətin səmərəliliyinin artırılması texniki parametrlərə nəzarətin nəticəsində mümkündür.

6.1.21 Texniki xidmətin bu növünün reallaşdırılması üçün aşağıdakı məsələləri həll etməyə imkan verən, məsafədən idarəetməni və nəzarəti yerinə yetirən avtomatlaşdırılmış sistemlərdən istifadə etmək lazımdır:

- Hər bir vasitənin və ya obyektin iş qabiliyyətinə nəzarət edilməsi;
- Avtomatik axtarış;
- Vasitələrin və obyektlərin məsafədən idarə edilməsi;
- Vasitənin və obyektin texniki vəziyyətinə dair məlumatların avtomatik sənədləşdirilməsi.

6.1.22 Obyektin ümumi elementlərinə (qurğularına) texniki xidmət üzrə yerinə yetirilən əməliyyatlar (təmir, əlavəetmə, yenidənqurma, avadanlığın dəyişdirilməsi) zamanı, habelə əməyin mühafizəsinə dair tələblərə riayət etmək məqsədi ilə obyektin şəbəkədən tamamilə açılmasını tələb edən əməliyyatlar üçün obyektin planlı dayandırılması nəzərdə tutulur.

6.1.23 Texniki xidmət və təmirin yerinə yetirilməsi zamanı iş qabiliyyətinin yoxlanılması məqsədi ilə obyektin **1** (bir) saata qədər dayandırılması (açılma, qoşulma, ehtiyat dəstə keçmə) növbə mühəndisinin HHİE uçuş rəhbəri ilə razılaşmasından sonra verdiyi icazə əsasında həyata keçirilir.

6.1.24 Obyektin 8 (səkkiz) saata qədər dayandırılması AXT rəhbəri tərəfindən təsdiq olunmuş texniki vasitələrin TX və təmir cədvəllərinə əsasən keçirilir. Bu vaxt işin başlanmasına ən azı 8 (səkkiz) saat qalmış HHİE VS BM-in rəisi bu haqda məlumatlandırılmalıdır.

6.1.25 Obyektin 8 (səkkiz) saatdan artıq planlı dayandırılmaları AXT rəhbəri tərəfindən təsdiq olunmuş texniki vasitələrin TX və təmir cədvəllərinə əsasən həyata keçirilir. Trass müşahidə radarlarının növbəli plana uyğun dayandırılması planlaşdırılarkən qonşu rayon xidmətləri ilə əvvəlcədən razılıq əldə edilməlidir.

8 (səkkiz) saatdan artıq dayandırılmalar haqqında məlumatlandırılma isə Aerodrom Məlumat Xidmətinin vasitəsi ilə işin başlanmasına **7** (yeddi) sutka qalmış avadanlığın (sistemin) şəbəkədən açılma səbəbini, dayandırılmanın başlanma və qurtarma vaxtını göstərməklə həyata keçirilir və müvafiq jurnallarda bu barədə qeydiyyat aparılır.

Obyektin **8** (səkkiz) saatdan artıq davam edən plandan kənar dayandırılmaları haqqında regional xidmət rəhbəri RTAR və HHAİS Mərkəzinin rəhbərinə, o isə öz növbəsində AXT rəhbərinə məruzə edir.

6.1.26 Obyektdə boş dayanmaların ixtisara salınması məqsədi ilə bütün hazırlıq işləri tam başa çatdıqdan sonra planlı dayandırılmanı həyata keçirmək zəruridir.

6.1.27 Zədələnmə aşkarlandıqda dayandırılmanın müddəti həmin zədələnmənin aradan qaldırılması üçün lazım olan vaxta qədər artırılır.

6.1.28 Texniki vasitəsin təmirinə dair yerinə yetirilən işlər barədə müvafiq jurnalda qeydiyyat aparılır.

6.1.29 Texniki xidmətin axırında iş rəhbəri (icraçı rəhbər) ”Texniki xidmət və təmir jurnalı”nda texniki xidmətin tam həcmdə keçirilməsinə dair və sərf olunan materialları, parametrlərin ölçmədən sonrakı nəticələrini göstərməklə qeydlər aparmalıdır, habelə avadanlığın iş qabiliyyətinə və onun işə hazırlığına dair öz qərarını qeyd etməlidir.

6.1.30 Texniki xidmətin vaxtında, tam həcmdə və keyfiyyətli yerinə yetirilməsinə nəzarət müvafiq aparıcı mütəxəssislər və obyekt rəhbəri tərəfindən həyata keçirilir.

6.1.31 Texniki vasitə təyinatı üzrə istifadəyə o vaxt yararlı hesab olunur ki, onun xidmət müddəti (resursu) qurtarmamış olsun və ya vaxtında artırılsın, əsas parametrləri sertifikatlaşdırma tələblərinə uyğun gəlsin, texniki xidməti, yerüstü və uçuşla yoxlanışı vaxtında və tam həcmdə yerinə yetirilmiş olsun.

6.2 AEROPORT ƏRAZISINDƏN KƏNARDA YERLƏŞDIRILMIŞ TEXNIKI VASITƏLƏRINƏ TEXNIKI XIDMƏTIN TƏŞKIL OLUNMASI

6.2.1 AXT-nın regional bölmələrindəki obyektlərində onların iş qabiliyyətini normal həddə qoruyub-axlamaq məqsədi ilə obyektlər üzrə texniki xidmət qrupları yaradılır.

6.2.2 Obyektlər ərazidən kifayət qədər uzaqda və çətin keçilən ərazilərdə yerləşdiyi təqdirdə həmin obyektlərin iş qabiliyyətini qoruyub-saxlamaq üçün mühəndis-texniki heyətin müddətli növbə üsulu ilə işi təşkil olunur.

6.2.3 Ərazidən kənarda yerləşən obyektlərin ştat üzrə radiotexniki işçiləri olduqda isə texniki vasitələrə texniki xidmət həmin obyektin işçiləri tərəfindən tam həcmdə yerinə yetirilməlidir.

6.2.4 AXT-nın müstəsna iş fəaliyyətinə malik olan HHİE dayaq və operativ idarəetmə məntəqələrində ştat üzrə radiotexniki işçilər nəzərdə tutulmadıqda həmin yerlərdə operativ texniki xidmət (TX-1) yerinə yetirilməyir, texniki vasitələrin iş qabiliyyətinə operativ nəzarət birbaşa olaraq həmin texniki vasitələrdən istifadə edən şəxslərə həvalə olunur. Onlar üçün nəzarət cədvəlləri işlənib-hazırlanır və təsdiqlənir.

6.2.5 AXT-nın regional bölmələrində imtina etmiş texniki vasitələrin operativ olaraq əvəz olunması üçün AXT-da texniki vasitələrin xüsusi ehtiyat fondu (qaytarılan-dəyişdirilən fond) yaradılır.

6.3 XƏTTI-KABEL QURĞULARINA TEXNIKI XIDMƏTIN APARILMASI

6.3.1 XKQ-na aparılan texniki xidmət rabitənin etibarlılığını və obyektlərin operativ idarə olunmasını təmin edir.

6.3.2 XKQ istismara qəbul edilərkən tikinti-quraşdırma idarəsi AXT-na kabel xətlərinin pasportunu, kabelin sabit cərəyanla olçülmə protokolunu, quraşdırma və işçi sənədlərini təqdim edirlər. Kabel xəttinin pasportu və digər tikinti-quraşdırma sənədləri ilkin istismar sənədləridir və kabel xətlərinin bütün xidmət müddətində qorunub-saxlanılmalıdır. Bu sənədlər daima dəqiqləşdirilməli və dövri olaraq nəzarət-ölçmə protokolları ilə yeniləşdirilməlidir.

6.3.3 Əvvəllər istismara verilmiş XKQ-nin ilkin istismar sənədləri qorunub-saxlanılmadıqda AXT tərəfindən həmin sənədlərin yenidən bərpasına dair tədbirlər görülməlidir.

6.3.4 XKQ-na göstərilən texniki xidmətə (reqlament olmadığı üçün işlərin siyahısı daha geniş verilib) aşağıdakılar aiddir:

- Kabelin elektriki parametrlərinin ölçülməsi;
- Traslarda mövsümi işlərin aparılması;
- Kabel xətlərinə baxışın keçirilməsi;
- Texniki nəzarətə dair tədbirlərin keçirilməsi;

6.3.5 Elektrik parametrlərin ölçülməsi kabel rabitə xətlərinin vəziyyətinin təyin edilməsi məqsədi ilə yerinə yetirilir. Ölçmələr planlı və nəzarət ölçmələrinə bölünür:

- Planlı ölçmələr ildə bir dəfə (TX-6) aparılır;
- Sabit cərəyanla nəzarət ölçmələri təmir (planlı və qəza) işləri başa çatdıqdan sonra yerinə yetirilir və protokol tərtib edilir .

6.3.6 Traslarda mövsümi işlər YYM və PQM-ə hazırlıq işləri zamanı yerinə yetirilir. TX üzrə işlərin həcmi trassın hər sahəsi üçün yerli şəraitdən, yol marşrutundan, kabelin çəkiliş marşrutundan, tikililərin (qurğuların) tərkibindən asılıdır və trassa əvvəlcədən keçirilən baxışın nəticələrinə görə təyin olunur. Yerinə yetiriləcək işlərin siyahısı rabitə qovşağının rəisi və ya onu əvəz edən vəzifəli əvəz edən vəzifəli şəxs tərəfindən təsdiq olunmuş tapşırığın əsasında tərtib olunur.

6.3.7 MTX zamanı aşağıdakı işlər yerinə yetirilir:

- Yerüstü tikililərə, qurğulara, kabeldaşıyıcı qurğulara baxış keçirilir;
- Dağılmış sahələrdə yerüstü işlər yerinə yetirilir;
- Uçqunların, sürüşmələrin və süxur suları ilə yuyulmaların qarşısının alınması, habelə süxurların doldurulması və bərkidilməsi məqsədi ilə işlər yerinə yetirilir;
- Su axıdan kanallar, arxlar çəkilir, yollardan, çaylardan və uçurumlardan keçən yerlərdə mühafizə qurğularının vəziyyəti yoxlanılır və bərkidilir.

6.3.8 Kabel trasslarına baxış keçirilməsinə dair işlər XKQ-nin TX cədvəlinə əsasən aparılır. Baxış vaxtı aşkar olunmuş çatışmamazlıqların aradan qaldırılması üzrə işlər yerinə

yetirilir. Yerinə yetirilən işlər və baxışların nəticələrinə əsasən texniki xidmət jurnalında qeydlər aparılır.

6.3.9 Texniki nəzarət özündə aşağıdakıları birləşdirir:

- Ərazisindən və ya yaxınlığından keçən (qoyulan, çəkilən) kabel trasları olduqda onların və rabitə xətlərinin mühafizəsi qaydaları haqqında yerli hakimiyyət orqanlarını, təşkilat və müəssisələri, kənd təsərrüfatı müəssisələrini əvvəlcədən xəbərdar etmək lazımdır;
- Kabel xəttinin trassı üzrə yerləşmiş müəssisə və təşkilatların işçiləri və əhali arasında kabel xəttinin mühafizə zonasında işləyərkən təhlükəsizlik tədbirlərinə əməl olunmasına dair izahedici işlər aparılmalıdır;
- Müvafiq təşkilatlara və şəxslərə onların iş gördükləri ərazilərdən yerüstü kabel xətlərinin keçməsinə və işlər yerinə yetirilərkən kabel xətlərinin qorunub-saxlanılmasına görə məsuliyyət daşıdıqlarına dair xəbərdarlıq edilir;
- Kabel xətlərinin digər yeraltı və yerüstü qurğularla yaxınlaşdığı yerlərdə və tikinti işlərinin aparılması gözlənilən ərazilərdə xəbərdaredici işarələr quraşdırılır;
- Tikinti quraşdırma, planlaşdırma və torpaq işləri, quyu qazan qurğuların işləməsi, ağacların əkilməsi və rabitə xəttinin mühafizə olunan ərazisinin yaxınlığında materialların qoyulması yazılı şəkildə razılaşdırılır;
- Kabelin mühafizə ərazisində torpaq işlərinin və digər işlərin yerinə yetirilməsi zamanı nəzarət fasiləsiz olaraq aparılır və onun zədələnməməsi üçün tədbirlər görülür.

6.4 ANTEN QURĞULARINA TEXNIKI XIDMƏTIN KEÇIRILMƏSI QAYDALARI

6.4.1 AQ-nın texniki xidmətinə TX-1 - TX-5 aiddir.

6.4.2 AQ-nın texniki xidmətinə dair işlər təhlükəsizlik texnikası qaydalarına əməl olunması şərti ilə yerinə yetirilməlidir.

6.4.3 TX-1 yerinə yetirilərkən AQ-yə xaricdən baxış keçirilir.

6.4.4 MTX yerinə yetirilərkən AQ-yə baxış keçirilir, anten qurğusunun dartıcıları tənzimlənir, antena direklərinin şaquliliyi yoxlanılır.

6.4.5 AQ-nin koaksial kabellərinə baxış keçirilir.

6.5 OBYEKTLƏR ÜZRƏ ELEKTRIK ENERJI TƏCHIZATI SISTEMLƏRINƏ TEXNIKI XIDMƏTIN TƏŞKILI VƏ YERINƏ YETIRILMƏSI

6.5.1 Obyektlərin elektrik enerji təchizatı sistemləri üzrə texniki xidmət aşağıdakı kimi yerinə yetirilir

6.5.2 Dizel-generatorlara göstərilən texniki xidmətin növləri və dövrülüyü:

- Operativ texniki xidmət (TX-1);
- Dövri texniki xidmət (TX-2, TX-6).

6.5.3 Operativ texniki xidmət (TX-1) zamanı aşağıdakı işlər yerinə yetirilir

- Karterdə yağın səviyyəsini yoxlamalı
- Soyuducu mayenin səviyyəsini yoxlamalı
- Akkumulyator batareyasını yoxlamalı
- İdarəetmə indikasiya sistemini yoxlamalı
- Təmizlik işləri

6.5.4 TX-2 zamanıTX-1 dən əlavə

- Soyuducu və yanacaq sistemin boru və şlanqların vəziyyətini yoxlamalı
- Dizel-generatoru yüksüz işə salıb və əsas parametrləri yoxlamalı

6.5.5 TX-3 zamanı TX-2 dən əlavə

- Ötürücü qayışların vəziyyətini yoxlamalı
- Dizel-generatoru yük altında işə salıb və əsas parametrləri yoxlamalı
- Mühafizə torpaqlayıcının kontakt birləşməsini yoxlamalı

6.5.6 TX-4 zamanı TX-3 dən əlavə

- Ehtiyat və sərfiyyat yanacaq baklarındakı su və çöküntünün axıdılması
- Ehtiyat yanacaq təminatı
- Mexaniki qovşaqların kipliyini yoxlamalı

6.5.7 TX-6 zamanı TX-4 dən əlavə

- Yağ süzgəcinin dəyişdirilməsi
- Yanacaq süzgəcinin dəyişdirilməsi
- Hava süzgəcinin dəyişdirilməsi
- Yağın dəyişdirilməsi
- Soyuducu mayenin dəyişdirilməsi

6.5.8 Dizel-generatorlara illik texniki xidmət (TX-6) ixtisaslaşdırılmış şirkət nümayəndələrinin iştirakı ilə yerinə yetirilir.

6.5.9 Fasiləsiz qida mənbələrinə (FQM) göstərilən texniki xidmətin növləri və dövrülüyü:

- Operativ texniki xidmət (TX-1);
- Dövri texniki xidmət (TX-3, TX-5).

6.5.10 Operativ texniki xidmət (TX-1) zamanı aşağıdakı işlər yerinə yetirilir

- Otağın təklif olunan tələblərə uyğunluğunu yoxlamalı
- FQM-nə AB-larına baxış keçirməli
- Xəbərdarlıq siqnalizasiya sistemini yoxlamalı
- FQM-nin giriş və çıxış parametrlərini yoxlamalı

6.5.11 TX-3 zamanı TX-1 dən əlavə

- Ventilyatorların iş qabiliyyıtini yoxlamalı

- AB-larını dövrədən ayırmadan vəziyyətlərini yoxlamalı

6.5.12 TX-4 zamanı TX-3 dən əlavə

- Blok və qovşaqların elektrik birləşmələrini yoxlamalı
- FQM-in blok və AB -larını tozdan təmizləməli

6.5.13 TX-5 zamanı TX-4 dən əlavə

- AB yük altında yoxlanılması
- AB rejimdə işləmə müddətini təyin etməli
- Yoxlama haqqında protokol tərtib etməli
- Proqram təminatının yenilənməsi
- FQM-lərinə yarımillik texniki xidmət (TX-5) ixtisaslaşdırılmış şirkətin iştirakı ilə yerinə yetirilir.

6.5.14 Elektrik güc lövhələrinə göstərilən texniki xidmətin növləri və dövrülüyü:

- Operativ texniki xidmət (TX-1);
- Dövri texniki xidmət (TX-2, TX-3).

6.5.15 Operativ texniki xidmət (TX-1) zamanı aşağıdakı işlər yerinə yetirilir

- Gərginliyin mövcudluğu yoxlamalı
- Avtomatik açılmış mühafizə avtomatları yoxlamalı

6.5.16 TX-2 zamanı TX-1 dən əlavə

- Birləşmə kontaktlarının qızmasını yoxlamalı
- Maqnit açarları yoxlamalı

6.5.17 TX-3 zamanı TX-2 dən əlavə

- Birləşmə kontaktlarının etibarlılıq çəkimini yoxlamalı
- Mühafizə torpaqlayıcının kontakt birləşməsini yoxlamalı
- Elektrik sayğaclarına nəzarət
- Elektrik güc lövhələrinin çirk və tozdan təmizləməli
- Elektrik avadanlıqlarına texniki xidmət zamanı aşkar olunan nasazlıqlar aradan qaldırılır və nətiçələr “Avadanlıqların texniki xidmət və təmiri” jurnalında qeyd edilir.

6.5.18 Mühafizə torpaqlayıcı qurğuların kontur və metal əlaqələrinin müqavimətləri plan qrafikə əsasən ildə bir dəfə metroloji xidməti tərəfindən ölçülür.

6.5.19 Elektrik qurğularının istismarının təşkil olunması üzrə funksiyaların yerinə yetirilməsi üçün AXT rəhbərinin əmri ilə elektrik təsərrüfatı üzrə məsul şəxs, habelə onu əvəz edə bilən şəxs təyin olunur.

6.6 FÖVQƏLADƏ ŞƏRAITLƏRDƏ RTAR VƏ HHAİS TEXNIKI VASITƏLƏRINƏ TEXNIKI XIDMƏT

6.6.1 Xüsusi şəraitlərə təhlükəli meteoroloji və təbii fəlakət hadisələri aiddir. Belə ki, bu zaman küləyin sürəti 20 m/san. və daha çox olur, toz, qum və qar çovğunu, mütəmadi yağıntılar, qar, güclü buzlaşma, temperaturun mənfi –30 °S-yə və daha aşağı düşməsi müşahidə olunur.

6.6.2 Təhlükəli təbiət hadisələri haqqında xəbərdarlıq meteoroloji nəzarət orqanları tərəfindən verilir. Təhlükəli təbiət hadisələrinə dair məlumatların verilməsi AXT-da meteo təminata dair rəhbər sənədlərlə reqlamentləşdirilir.

6.6.3 Gözlənilən təhlükəli təbiət hadisələri baş verən zaman obyektin buna hazır olması, avadanlığın qorunması və baş vermiş təbii fəlakətin nəticələrinin vaxtında aradan qaldırılması məqsədi ilə istismarın fövqəladə şəraitləri üzrə texniki vasitələrə xidmət həyata keçirilir.

Obyektlərdə Mərkəz və xidmət rəhbəri tərəfindən imzalanmış və AXT rəhbəri tərəfindən təsdiqlənmiş təhlükəli hadisələr haqqında xəbərdarlıq aldıqları vaxt mühəndis-texniki heyətin fəaliyyətinə dair təlimat olmalıdır.

6.6.4 Növbə mühəndisi təhlükəli hadisələr barədə xəbərdarlıq aldıqdan sonra yubanmadan obyektlərdəki növbətçi mühəndis-texniki heyəti müvafiq tədbirlər görmələri üçün məlumatlandırır.

6.6.5 Təhlükəli hadisələr qurtardıqdan sonra obyektlərə, AFQ-yə, XKQ-yə baxış keçirilir, zədələnmələrin aradan qaldırılması üçün tədbirlər görülür və zərurət yarandıqda bərpa işləri təşkil olunur.

6.7 RTAR VƏ HHAİS VASITƏLƏRININ TEXNIKI İSTISMARI ZAMANI METROLOJI TƏMINAT

6.7.1 Metroloji təminat aparılan ölçmələrin düzgünlüyünə və tələb olunan dəqiqliyinə nail olmaq üçün zəruri olan elmi, təşkilati əsasların, qaydaların və normaların tətbiq və habelə təmin olunmasını nəzərdə tutur.

6.7.2 AXT-da metroloji təminat üçün əsas vəzifələr aşağıdakılardır:

- Texniki vasitələrin tələb olunan iş keyfiyyətinin təmin olunması;
- Texniki vasitələrin parametrləri ölçülərkən ölçmələrin düzgünlüyünün və tələb olunan dəqiqliyin təmin olunması;
- Ölçü vasitələrinin daimi metroloji hazırlığının qorunub-saxlanılması.

6.7.3 Texniki vasitələrin metroloji təminatına dair tapşırığın həlli zamanı Azərbaycan Respublikasının qanunvericiliyi, dövlət və sənaye standartları, dövlət standartlarının təlimat və qaydaları, MA-da Metroloji xidmətinin normativ sənədləri rəhbər tutulur.

6.7.4 Texniki vasitələrin parametrlərini ölçmək üçün yalnız vaxtlı-vaxtında dövlət metroloji xidməti və ya bu məqsədlə akkreditə olunmuş təşkilatların metroloji xidmətləri tərəfindən zəmanətli yoxlanılmış (kalibrlənmiş) və saz vəziyyətdə olan ölçü vasitələrindən istifadə edilir.

6.7.5 Xaricdə istehsal olunan ölçü vasitələri texniki vasitələrin istismarı zamanı istifadə edildikdə həmin ölçü vasitələri Azərbaycan Respublikasının dövlət standartları tərəfindən verilmiş və təsdiq olunmuş sertifikata malik olmalıdır. Həmin ölçü vasitələrinin istifadəsi isə Azərbaycan Respublikasında MA üzrə metroloji xidməti ilə razılaşdırılmalıdır.

6.7.6 Texniki vasitələrin parametrlərinin ölçülməsinə dair metodika ICAO-nun tövsiyələrinə uyğun olaraq attestasiyadan keçirilməlidir.

6.7.7 Ölçü vasitələrinin dövri zəmanətli yoxlanışdan keçməsi (kalibrlənməsi) müvafiq qaydada akkreditə olunmuş metroloji xidmətlərlə razılaşdırılmış və AXT rəhbəri tərəfindən təsdiqlənmiş qrafik-cədvəl əsasında yerinə yetirilir.

Ölçü vasitələrinin zəmanətli yoxlanışının (kalibrlənməsinin) dövriliyi onların istismar sənədlərində göstərilir və ya müvafiq Metroloji Xidmətinin normativ sənədlərinə əsasən təyin olunur.

6.7.8 Texniki vasitələrin istismarının metroloji təminatına dair işlərin təşkil olunması və yerinə yetirilməsi üçün AXT rəhbərinin əmri ilə metroloji təminat üçün cavabdeh (məsul) şəxs seçilir.

Metroloji təminat üçün cavabdeh şəxsə aşağıdakılar həvalə olunur:

- Ölçü vasitələrinin qeydiyyatını yerinə yetirir ;
- Dövlət orqanlarının metroloji xidmətlərində və ya bu məqsədlə akkreditə olunmuş digər təşkilatlarda ölçü vasitələrinin zəmanətli yoxlanışa (kalibrlənməyə) dair qrafik-cədvəlini işləyib-hazırlayır, razılaşdırır və təsdiqə təqdim edir;
- Zəmanətli yoxlanışa (kalibrlənməyə) dair qrafik-cədvəlin yerinə yetirilməsinə nəzarət edir;
- Ölçü vasitəsinin saz vəziyyətindəki halını, istifadəsinin, qorunub-saxlanılmasının düzgünlüyünü, vaxtlı-vaxtında zəmanətli yoxlanışa (kalibrlənməyə) və təmirə verilməsini yoxlayır;
- Texniki vasitələrin istismara verilməsi zamanı və qəbul komissiyasının işində onların metroloji təminatına dair işlərdə iştirak edir.

6.7.9 Texniki vasitənin istismarı zamanı metroloji təminat üçün cavabdeh şəxsin aşağıdakı hüquqları var:

- Ölçü vasitələrinin istismarı zamanı aşkarlanmış çatışmamazlıqların aradan qaldırılmasına dair təkliflərini rəhbərliyə təqdim edir;
- Nasaz, yoxlanılmamış və təyinatı üzrə istifadə edilməyən ölçü vasitələrinin geri

götürülməsini tələb edir;

- Obyektlərdə olan ölçü vasitələrinin vəziyyəti və ölçü vasitələrinin istismar qaydalarını pozan şəxslər haqqında Mərkəz , xidmət rəhbərinə məruzə edir,

6.8 PROQRAM TƏMINATI ÜZRƏ TEXNIKI XIDMƏT (PTX)

6.8.1 Proqram təminatı üzrə texniki xidmət (PTX) bu məqsədlə xüsusi hazırlıq keçmiş və Mərkəz, xidmət rəhbərinin qərarı ilə təyin olunmuş mühəndis-texniki heyət tərəfindən yerinə yetirilir.

6.8.2 Proqram təminatı üzrə texniki xidmətin yerinə yetirilməsi məqsədi ilə müvafiq reqlamentlər hazırlanır. Bu zaman həmin reqlamentlərin hər birinin davam etmə müddəti, reqlamenti yerinə yetirən mühəndis-texniki heyətin təkribi və sayı, reqlament zamanı istifadə olunan və yaxud da istifadə ehtimalı ola bilən proqram və texniki vasitələrin dəqiq siyahısı verilir.

6.8.3 PTX yerinə yetirilərkən sistemin bütün xüsusiyyətləri nəzərə alınmalıdır. Belə ki, mövcud sistemin malik olduğu dinamik məlumatların müvafiq PTX reqlamentindən sonrakı vəziyyəti mütləq nəzərə alınır ki, bu haqda uçuş rəhbəri (dispetçer) və ya müvafiq operator reqlament başlanmazdan əvvəl xəbərdar edilsin.

6.8.4 PTX yerinə yetirilməsi, ümumiyyətlə sistemin malik olduğu əməliyyat və işçi proqramlarına kənar müdaxilələrin baş verməməsi məqsədi ilə müvafiq səviyyələrdə parollar tətbiq oluna bilər. Bu zaman parolların operativ istifadə olunması və onların etibarlı qorunub-saxlanılması üçün obyektin rəhbəri tərəfindən müvafiq tədbirlər görülür.

6.8.5 PTX yerinə yetirilərkən bu məqsədlə hazırlanmış və obyektin rəhbəri tərəfindən imzalanmış, Mərkəz, xidmət rəhbəri tərəfindən təsdiqlənmiş müvafiq nəzarət xəritələrinin (cədvəllərinin) köməyi ilə sistemin Mövcud məlumatlar bazası yoxlanılır.

6.8.6 PTX zamanı aşkarlanmış meyletmələr, fərqlər və s. haqda Mərkəz, xidmət rəhbərinə məruzə edilir.

6.8.7 İldə bir dəfədən az olmayaraq, texniki imkanlardan asılı olaraq sistemlərdə PTX üzrə mövcud konfiqurasiyanın arxivləşdirilməsi və obyektin ehtiyat imkanları olduğu təqdirdə müvafiq bərpa olunması yerinə yetirilir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

7 RTAR VƏ HHAİS TEXNİKİ VASİTƏLƏRİNİN TƏMİRİ

7.1 RADIOTEXNIKI AVADANLIQLARIN TƏMIRI

7.1.1 Təmir texniki vasitələrin istismarının tərkib hissəsidir. Təmir bu vasitələrin iş qabiliyyətinin və (və ya) sazlığının bərpa olunması, bununla da bu vasitələrin resursunun qismən bərpa olunması məqsədi ilə yerinə yetirilir.

7.1.2 Texniki vasitələrin təmiri onun tərkib hissələrinin dəyişdirilməsi və bərpa olunması yolu ilə yerinə yetirilir. Vasitənin bərpa olunması üçün işin tələb olunan həcmindən və mürəkkəbliyindən asılı olaraq təmirin cari və planlı növləri var.

7.1.3 Texniki vasitələrin cari təmiri onların texniki vəziyyətinə əsasən yerinə yetirilir. Qovşaq və blokların cari təmiri aşağıdakı kimi yerinə yetirilə bilər:

- İstismar olunduğu yerdə istismarçının gücü ilə;
- İstehsalçı zavodlarda (və ya təmir orqanlarında) təmir fondundan istifadə etməklə;
- İstismar yerlərində zəmanətli təmir və ya müqavilə əsasında istehsalçı müəssisənin gücü ilə.

7.1.4 Texniki vasitələrin cari təmiri Mərkəz və xidmətin mühəndis-texniki heyəti tərəfindən istismar dövründə baş vermiş imtinalar (sıradançıxmalar) zamanı istismar sənədlərində göstərilmiş texnologiyaya uyğun olaraq yerinə yetirilir.

7.1.5 Quraşdırıldığı yerdə texniki vasitələr üzrə cari təmirin ardıcıllığı avadanlıqla birlikdə təchiz edilmiş istismar sənədlərinin əsasında reqlamentləşdirilir.

7.1.6 Texniki vasitələrin planlı təmiri vasitələrin texniki vəziyyəti üzrə planlı təmirə dair normativ sənədlərin əsasında təşkil olunur.

7.2 ANTEN-FIDER QURĞULARININ VƏ XƏTTI-KABEL QURĞULARININ TƏMIRI

7.2.1 AFQ və XKQ-nin təmiri cari və planlı təmir növlərinə bölünür.

7.2.2 AFQ və XKQ-nin istismar dövründə cari təmir nasazlıqlar aşkarlandıqdan dərhal sonra yerinə yetirilir.

7.2.3 Planlı təmir AFQ və XKQ-nin texniki vəziyyətindən asılı olaraq həyata keçirilir və texniki xidmətin nəticələri, habelə qüsur aktlarının məzmunu əsasında planlaşdırılır.

7.2.4 AFQ və XKQ-nin planlı təmiri AXT-nın öz gücü ilə və (və ya) tikinti-quraşdırma təşkilatlarının layihə-smeta sənədləri əsasında yerinə yetirilir.

7.2.5 AFQ və XKQ-nin planlı təmiri zamanı yerinə yetirilməsi nəzərdə tutulan işlərin həcmi AXT rəhbərinin təyin etdiyi xüsusi komissiya tərəfindən müəyyən edilir və texniki vəziyyətə dair aktla tərtib olunur.

7.2.6 AFQ-nin planlı təmiri başa çatdıqdan sonra nəzarət-elektrik ölçmələri yerinə yetirilir:

- Anten-fider xətlərinin qaçan dalğa əmsalı ölçülür;
- Anten-fider xətlərinin qida asimmetriya əmsalı ölçülür;
- Anten-fider xətlərinin izolyasiya qatının müqaviməti ölçülür. Ölçmələrin nəticələri

antenanın formulyarına (pasportuna) yazılır.

7.2.7 XKQ-nin planlı təmiri digər təşkilatlar tərəfindən yerinə yetirildikdə təmir briqadalarının tərkibinə XKQ-ni fəaliyyətdə olan sistemdən (şəbəkədən) ayırmaq üçün zəruri açılmaları yerinə yetirə bilən, texniki nəzarət və qəbul işlərini həyata keçirən AXT-nın nümayəndəsi daxil edilməlidir.

7.2.8 Bütün növdən olan təmir işlərinin sonunda kabel xətlərinin pasportuna təmir zamanı edilmiş dəyişikliklər və həmin dəyişikliklərin tarixi qeyd olunur.

Nəzarət elektrik ölçmələrinin protokolu norma və ilkin verilənlərlə müqayisə olunduqdan sonra pasportdakı materiallara əlavə edilir.

7.3 RTAR VƏ HHAİS VASITƏLƏRINƏ ƏLAVƏLƏR EDILMƏSI

7.3.1. Texniki vasitələrə əlavələr edilməsi onların taktiki, texniki və istismar xüsusiyyətlərini daha da yaxşılaşdırmaq, etibarlılığı artırmaq, habelə konstruktiv və istehsalat çatışmamazlıqlarını aradan qaldırmaq məqsədi ilə yerinə yetirilir.

7.3.2. Texniki vasitələrə əlavələr edilməsi layihəçi müəssisələrin bülletenləri əsasında tərtib olunduqdan və AXT tərəfindən qüvvəyə mindikdən sonra yerinə yetirilə bilər.

7.3.3. Texniki vasitələrə əlavələr edilməsi bülletenin növündən asılı olaraq AXT-nın, istehsalçı-müəssisənin və ya təmir müəssisəsinin gücü ilə yerinə yetirilir. İşlərin təşkil olunma ardıcıllığı bülletenlərlə müəyyən edilir.

7.3.4. Texniki vasitələrə (ayrıca olaraq bloklara və ya qurğulara) əlavələr olunması məqsədi ilə həmin texniki vasitələri istehsalçı müəssisəyə və ya təmir müəssisələrinə göndərən zaman həmin vasitələrin vaxtında göndərilməsi, vəziyyəti və tamlığı (dəstliyi) üçün məsuliyyəti AXT rəhbəri tərəfindən bu işə həvalə olunan şəxs daşıyır.

7.3.5. İşlər bülletenlərdə nəzərdə tutulduğu tam həcmdə yerinə yetirildikdən sonra işin rəhbəri tərəfindən vasitənin formulyarında yerinə yetirilmiş işlər haqqında qeydlər aparılaraq imzalanır və AXT-nın möhürü ilə təsdiqlənir. Əlavələr edildikdən sonra texniki vəziyyətə dair akt tərtib olunur. Aktın tərtibatı və müxtəlif istiqamətləndirilmələr əlavələr üçün nəzərdə tutulan müvafiq bülletenlərdə göstərilir.

7.3.6. Bülletendə nəzərdə tutulmuş, lakin yerinə yetirilməyən işlər və onlarınn səbəbi haqqında məlumatlar əlavələrin yerinə yetirilməsi üçün ayrılmış vaxtdan 16 gün keçdikdən sonra, əlavələr etmək üçün bülleten buraxmış müəssisə rəhbərinə göndərilir.

7.4 RTAR VƏ HHAİS VASITƏLƏRININ XIDMƏT MÜDDƏTININ VƏ YA RESURSUNUN ARTIRILMASI

7.4.1 Texniki vasitənin istismar sənədlərində müəyyən edilmiş xidmət müddətini və ya resursunu başa vurduqda həmin vasitənin sonrakı istifadəsi üçün imkanları araşdırmaq məqsədi ilə yoxlama keçirilir.

7.4.2 Texniki vasitənin xidmət müddətinin və ya resursunun artırılması üzrə işlər AXT rəhbərinin əmri ilə yaradılmış komissiya tərəfindən yerinə yetirilir. Komissiyanın sədri Mərkəz,xidmt rəhbəri və ya onların müavini olur. Komissiyanın tərkibinə həmin vasitəni istismar edən və əməyin mühafizəsi üzrə mütəxəssislər daxildir. Zərurət yarandıqda komissiyanın tərkibinə istehsalçı müəssisənin və digər səlahiyyətli təşkilatların nümayəndələri də qoşula bilər.

7.4.3 Texniki müayinələrin (təhqiqatların) nəticələrinə əsasən zərurət yarandıqda RTAR və HHAİS Mərkəzinin istehsalat müəssisələri və digər təşkilatlarla qarşlıqlı razılaşdırılmış birbaşa müqavilələrin əsasında təmirin həcmi və keçirilmə tarixi müəyyən edilir.

7.4.4 Texniki vasitənin vəziyyətinin yoxlanışının nəticəsi olaraq texniki vəziyyətə dair akt tərtib olunmalıdır.

7.4.5 Buraxıla bilən zaman intervalının təyin olunma ardıcıllığı və xidmət müddətinin artırılması hesablanır.

7.4.6 Texniki vasitə öz xidmət və qorunub-saxlanılma müddətini başa vurduqda, müəyyən olunmuş resursu işləyib qurtardıqda və son həd vəziyyətinə gəlib çatdıqda, normativ sənədlərin əsasında AXT hesabından (balansından) silinir.

7.4.7 HH AİS-in texniki vəziyyətinin yoxlanışı AXT rəhbərinin əmri ilə təyin olunmuş komissiya tərəfindən yerinə yetirilir.

7.4.8 HH AİS-in texniki vəziyyətini yoxlayan komissiyanın işi xüsusi hazırlanmış metodikaya və proqramlara əsaslanır. Yoxlanışların nəticələrinə əsasən akt tərtib olunur: HH AİS-in texniki vəziyyətinin yoxlanışına dair akt AXT rəhbəri tərəfindən təsdiqlənir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

8 HAVADAKI HƏRƏKƏTİN TƏŞKİLİ (HHT) PROSESLƏRİNİN PROQRAM TƏMİNATI

8.1 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYINƏ DAIR TƏLƏBLƏR

8.1.1 Uçuşların təhlükəsiz idarə edilməsi sistemi HHİE proseduralarının təmin edilməsi zamanı risklərin qiymətləndirilməsi və azaldılması üçün nəzərdə tutulur. Operativ istismar zamanı proqram təminatındakı bütün dəyişikliklər (məs., əsas/ehtiyat iş rejimində operativ formada "qaynar iş" rejiminə keçirilməsi) konkret olaraq göstərilməlidir.

8.1.2 HH AİS-də proqram təminatının təhlükəsizliyinə zəmanət vermək üçün ən azı aşağıdakı şərtlər ödənilməlidir:

- Proqram təminatı uçuşların idarə edilməsi zamanı riskin qiymətləndirilməsi və azaldılması prosesi üçün lazım olan bütün təhlükəsizlik tələblərini müəyyənləşdirməlidir.
- Proqram təminatının bütün tələblərə uyğunluğunu yoxlamaq məqsədilə proseslərin izlənilə bilməsi mümkün olmalıdır.
- Tətbiq edilən proqram təminatının heç bir funksiyası uçuşların təhlükəsizliyinə neqativ təsir göstərməməlidir.
- HH AİS proqram təminatı onun uçuşların təhlükəsizliyi üçün irəli sürülən etibarlılıq tələblərinə cavab verməlidir.

8.1.3 Uçuşların təhlükəsizliyini təmin edən ümumi tələblərin ödənilməsi, habelə tələb edilən zəmanətlərin təmin edilməsi üçün aşağıdakılar əsas götürülə bilər:

- Proqram təminatının istismarı və onun məlum olan versiyası.
- Sistemin konfiqurasiyasının məlum olan formatı.
- Proqram vasitələrinin və onların təsnifatının (texniki xüsusiyyətlər də buraya aid edilir) hazırlanması (yaradılması) zamanı istinad edilən artıq məlum olan variantlar.

8.2 PROQRAM TƏMINATININ TƏHLÜKƏSIZLIYINƏ ZƏMANƏT VERƏN SISTEMƏ TƏTBIQ EDILƏN TƏLƏBLƏR

HHİE xidmətlərinin təmin edilməsi zamanı proqram təminatının təhlükəsizliyinə zəmanət verən sistem üçün ən azı aşağıdakı tələblər irəli sürülür:

8.2.1 Riskin qiymətləndirilməsi və azaldılması üzrə ümumi sənədləşmənin tərkibi kimi sənədləşdirilir.

8.2.2 HH AİS-in bütün əməliyyat-proqram təminatı üçün təhlükəsizlik zəmanətinin səviyyəsi təyin edilir.

8.2.3 Təhlükəsizlik zəmanətinə aşağıdakılar aiddir:

- Proqram təminatına dair tələblərin real olması.
- Proqram təminatının yoxlanılması.
- Proqram təminatına dair konfiqurasiyanın idarə edilməsi.
- Proqram təminatına dair tələblərin izlənə bilməsi (nəzarəti).

8.2.4 Tətbiq edilən zəmanətin ciddilik dərəcəsi təyin edilməlidir. Proqram təminatında təhlükəsizlik zəmanətinin hər səviyyəsi üçün ayrıca zəmanət səviyyəsi hazırlanmalıdır. Bu səviyyə uçuşların təhlükəsizliyi nəzərə alınmaqla proqram təminatının vaciblik dərəcəsindən asılı olaraq gücləndirilməlidir.

8.2.5 Bu məqsədlə:

a) Proqram təminatının təhlükəsizlik zəmanəti üzrə hər səviyyənin ciddilik dərəcəsi dəyişdirilərkən aşağıdakılar növbə ilə nəzərə alınmalıdır:

- Şərtlər şəraitdən asılı olmayaraq yerinə yetirilməlidir.
- Şərtlər yerinə yetirilməlidir.
- Şərtlərin yerinə yetirilməsi vacib deyil.

b) Proqram təminatı təhlükəsizlik zəmanətinin müvafiq səviyyəsinə uyğun gələn zəmanət HH AİS proqram təminatının tam təhlükəsiz (təhlükəsizlik səviyyəsinin imkan verdiyi səviyyədə) fəaliyyətini təmin etməyə inam (etibar) yaradır.

8.2.6 Proqram təminatının təhlükəsizlik zəmanəti üzrə hər HH AİS proqram təminatının təhlükəsizlik zəmanətinin tələblərinə uyğunluğunu təsdiqləmək üçün əks əlaqə prinsipindən istifadə etmək olar. Bu məqsədlə, HH AİS xidmətlərinin tətbiqi zamanı proqram təminatındakı istənilən problem və imtina nəzərə alınmalıdır, qiymətləndirilməlidir və təhlil olunmalıdır.

8.3 PROQRAM TƏMINATININ TƏHLÜKƏSIZLIK ZƏMANƏTININ SƏVIYYƏLƏRINƏ TƏTBIQ EDILƏN EƏLƏBLƏR

HHİE xidmətlərinin təmin edilməsi zamanı müvafiq təhlükəsizlik zəmanətini verən səviyyələr ən azı aşağıdakılara uyğun gəlməlidir:

8.3.1 Proqram təminatı üzrə təhlükəsizlik zəmanətinin səviyyəsi HH AİS proqram təminatı üçün qoyulan tələbləri ödəməlidir və neqativ halların yaranma ehtimalının qarşısını almalıdır. Ən azı 4 səviyyə təyin olunur. Birinci səviyyə ən kritik səviyyə hesab edilir.

8.3.2 Proqram təminatı üzrə təhlükəsizlik zəmanətinin müəyyən edilmiş səviyyəsi neqativ təsirlərin nisbətən çox halına uyğun gəlir. Bu isə proqram təminatının mümkün olan problem və imtinalarına səbəb ola bilər. Bu zaman proqram təminatının müəyyən edilmiş struktur və prosedur mühafizəsini (müdafiəsini) yaratdığı problem və imtinalarla bağlı risk nəzərə alınır.

8.3.3 HH AİS üzrə hər bir komponentin proqram təminatı üçün təhlükəsizlik zəmanətinin digər komponentlərdən asılı olmayan səviyyəsi(ləri) təyin edilir. Bu zaman bir-birindən asılı olan komponentlər üçün də uçuşların təhlükəsizliyi baxımından təhlükəsizlik zəmanətinin səviyyəsi(ləri) təyin edilir.

8.4 PROQRAM TƏMINATININ İŞ FƏALIYYƏTI ZAMANI ZƏMANƏTINƏ QOYULAN TƏLƏBLƏR

8.4.1 HHİE xidmətlərini təmin edərkən proqram təminatının təhlükəsizlik zəmanətinə dair tələblər ən azı aşağıdakılara uyğun gəlməlidir:

8.4.2 HH AİS proqram təminatının funksional imkanlarına (nominal və zəiflədilmiş iş rejimində) uyğun olaraq zaman xüsusiyyətləri, buraxılış qabiliyyəti, dəqiqlik, proqram resurslarının məqsədyönlü istifadəsi, ştatdankənar hallarda və artıq yüklənmələr zamanı sistemin dayanıqlığı təyin edilməlidir.

8.4.3 Təhlükəsizlik sisteminin tələblərinə uyğun gəlməlidir, xətasız olmalıdır və işin tələblərinə tam cavab verməlidir.

8.5 PROQRAM TƏMINATININ YOXLANIŞININ KEÇIRILMƏSINƏ DAIR YERINƏ YETIRILƏN ZƏMANƏTLƏRƏ QOYULAN TƏLƏBLƏR

HH AİS xidmətlərini təmin edərkən proqram təminatının təhlükəsizlik zəmanətinə dair tələblər ən azı aşağıdakılara uyğun gəlməlidir:

8.5.1 HH AİS proqram təminatının funksional imkanlarına uyğun olaraq zaman xüsusiyyətləri, buraxılış qabiliyyəti, dəqiqlik, proqram resurslarının məqsədyönlü istifadəsi, ştatdankənar hallarda və artıq yüklənmələr zamanı sistemin dayanıqlığı proqram təminatının tələblərinə uyğun gəlməlidir.

8.5.2 HH AİS proqram təminatı analitik üsullar və (və ya) testləmə və yaxud da səlahiyyəti çatan müvafiq orqanla razılaşdırılmış digər ekvivalent üsullarla yoxlanılmalıdır.

8.5.3 HH AİS proqram təminatı tam həcmdə və düzgün yoxlanılmalıdır.

8.6 PROQRAM TƏMINATININ MALIK OLDUĞU KONFIQURASIYANIN İDARƏ EDILMƏSINƏ DAIR YERINƏ YETIRILƏN ZƏMANƏTLƏRƏ QOYULAN TƏLƏBLƏR

HH AİS xidmətlərini təmin edərkən proqram təminatının təhlükəsizlik zəmanətinə dair tələblər ən azı aşağıdakılara uyğun gəlməlidir:

8.6.1 Konfiqurasiyanın mövcud olan təyinatı, izlənə bilmək xüsusiyyəti, habelə proqram təminatının vəziyyətinə dair qeydiyyat mövcud proqram təminatı üzrə iş fəaliyyətində HHİE proseslərini tənzimləyən (idrə edən) proqram təminatının bütün iş dövrü ərzində həmin konfiqurasiyanın tərkibində olmalıdır.

8.6.2 Problemlərə dair məlumatların ötürülməsi, problemlərin izlənməsi və korreksiyaedici tədbirlərin yerinə yetirilməsi uçuşların təhlükəsizliyi ilə bağlı olan və proqram təminatı tərəfdən meydana çıxan problemlərin həll olunduğunu nümayiş etməyə imkan verir.

8.6.3 Problemlərin axtarışına, üzə çıxardılmasına və tədbirlərin yerinə yetirilməsinə dair proseduralar proqram təminatın iş fəaliyyətini bərpa etməyə HHİE prosesinin proqram təmintaının bütün dövrü ərzində normal fəaliyyətinə təminat verir.

8.7 PROGRAM TƏMINATININ İŞƏ VERILMƏSI VƏ DƏYIŞIKLIKLƏR

8.7.1 HHİE-də istifadə olunan hər bir yeni proqram təminatı işə verildikdə aşağıdaki tələblərə uyğun olduğu təhlil olunmalıdır:

- Lisenziyalı olmalıdır.

- İzlənə bilmək xüsusiyyətinə malik olmalıdır.
- Problemlərin izlənməsi və korreksiyaedici tədbirlərin yerinə yetirilməsi imkanları olmalıdır.
- Proqram təminatının ehtiyatlanması və sonradan bərpası mümkün olmalıdır.
- Əməliyyat sistemlərinin və işçi proqramların kənar müdaxilələrdən qoruna bilməsi üçün müxtəlif səviyyəli parollama üsulları mövcud olmalıdır.
- Sistemlər işə verildikdə onların faktiki (həmin an üçün mövcud olan) əməliyyat sistemləri və işçi proqramları paket şəklində sistemin istismara qəbul olduğu obyektin rəhbərinə (və ya bu sahəyə səlahiyyəti olan mühəndisinə) təhvil verilməlidir.

8.7.2 HHİE sistemlərində tam yeni proqram təminati işə verildikdə AR Dövlət Mülkü Aviasiya Agentliyi tərəfindən icazə vərəqəsi alınmalıdır

8.7.3 HHİE sistemlərində proqram təminatındakı istənilən dəyişiklik AXT rəhbərliyi ilə razılaşdırılmış iş planına əsasən həyata kecirilir.

9 RTAR VƏ HHAİS VASİTƏLƏRİNİN YERÜSTÜ VƏ UÇUŞLA YOXLANIŞI

9.1 YERÜSTÜ YOXLANIŞ

9.1.1 Yerüstü yoxlanış tezniki vasitələrin əsas parametrlərinin istismar sənədlərinə uyğunluğunu qiymətləndirmək məqsədi ilə aşağıdakı hallarda yerinə yetirilir:

- Tikintisi başa çatmış obyektlərin istismara qəbulu zamanı;
- Dövri uçuşla yoxlanışlardan əvvəl;
- Obyektin yenidən qurulmasından sonra;
- HG-dən alınan iradların və şikayətlərin əsasında.

9.1.2 Texniki vasitələrin yerüstü yoxlanışına aşağıdakı işlər aiddir:

- İş qabiliyyətinin yoxlanılması;
- Köklənmə və tənzimlənmə işləri;
- Əsas təyinedici texniki parametrlərin ölçülməsi;
- Nəzarət rejimləri xəritəsinin və köklənmə cədvəli və köklənmənin yerüstü yoxlanışına dair protokolun tərtib olunması.

9.1.3 Texniki vasitələrin yerüstü yoxlanışı Mərkəz və xidmətin mühəndis-texniki heyəti tərəfindən həyata keçirilir. Nisbətən mürəkkəb texniki vasitələrin istismara verilməsi zamanı yerüstü yoxlanış istehsalçı müəssisənin, layihəçilərin, elmi təşkilatların və AXT-nın mütəxəssisləri tərəfindən də yerinə yetirilə bilər.

9.1.4 Texniki vasitələrin yerüstü yoxlanışı mülki aviasiyada və ICAO üzrə qüvvədə olan normativ sənədlərin tələbləri ilə müəyyən olunmuş dövriliyə və həcmə malikdir.

9.2 UÇUŞLA YOXLANIŞ

9.2.1 Texniki vasitələrin uçuşla yoxlanışı onların taktiki xüsusiyyətlərinin normativ-istismar sənədlərində göstərilən tələblərə uyğun olmasının təsdiqlənməsi və bu vasitələrin istismara yararlığının qiymətləndirilməsi məqsədi ilə həyata keçirilir.

9.2.2 Texniki vasitələrin uçuşla yoxlanışı mülki aviasiyada və ICAO üzrə qüvvədə olan normativ sənədlərin tələbləri ilə müəyyən edilmiş dövriliyə və həcmə malikdir.

9.2.3 Uçuşla yoxlanış aviasiya dəstələrinin məxsusi olaraq bu məqsədlər üçün ayrılmış və xüsusi avadanlıqla təchiz olunmuş təyyarə-laboratoriyalarının köməyi ilə yerinə yetirilir. Əgər yerüstü vasitələrin texniki parametrlərinin qiymətləndirilməsi üçün xüsusi bort avadanlığı tələb olunmadığı təqdirdə uçuşla yoxlanış adi HG ilə də həyata keçirilə bilər.

9.2.4 Təyyarə-laboratoriyaların xüsusi bort avadanlığı bu cür işləri yerinə yetirmək üçün səlahiyyəti olan hüquqi şəxs tərəfindən verilmiş metroloji attestasiyaya dair qüvvədə olan şəhadətnaməyə malik olmalıdır.

9.2.5 Texniki vasitələrin uçuşla yoxlanışının nəticələrinə əsasən uçuşla yoxlanışın nəticələrinə dair akt tərtib olunur.

9.2.6 Texniki vasitələrin uçuşla yoxlanışının vaxtlı-vaxtında keçirilməsi, tamlığı və keyfiyyəti üçün AXT rəhbəri və RTAR və HHAİSİ Mərkəzinin rəhbəri məsuliyyət daşıyır.

9.2.7 Birgə məskunlaşma (bazalaşma) və birgə istifadə aerodromlarında texniki vasitələrin uçuşla yoxlanışının növü, dövriliyi, ardıcıllığı, komissiyanın tərkibi və uçuşla yoxlanışın nəticələrinə dair hesabat sənədlərinin siyahısı ICAO-nun və MA normativ sənədlərinin göstərişlərinə əsasən təyin olunur.

9.2.8 Uçuşla yoxlanışın yerinə yetirilməsi üçün müddətlər II və III dərəcəli enmə sistemləri üçün 30 sutkaya qədər, qalan texniki vasitələr üçün isə 60 sutkaya qədər dəyişdirilə bilər.

9.2.9 Birgə məskunlaşma (bazalaşma) aerodromlarında texniki vasitələrin uçuşla yoxlanışının vaxtlı-vaxtında və tam həcmdə yerinə yetirilməsi üçün məsuliyyəti həmin aerodromların rəhbərləri daşıyırlar. Vasitələrin uçuşla yoxlanışı üzrə hazırlığın vaxtlı-vaxtında və keyfiyyətlə yerinə yetirilməsi üçün məsuliyyəti həmin vasitələrin təyinatından asılı olaraq Mərkəz və xidmət rəhbərləri daşıyırlar.

10 RTAR VƏ HHAİS MƏRKƏZİ ÜZRƏ MÜHƏNDİS-TEXNİKİ HEYƏTİN HAZIRLANMASI

10.1. Texniki vasitələrin istismarı müvafiq ixtisasa malik, MA-nın ali və orta ixtisas məktəblərində ümumtexniki və xüsusi hazırlıq keçmiş və ya bu cür digər tədris müəssisələrində stajlamadan keçmiş, verilmiş ixtisas üzrə vəzifə borclarının yerinə yetirilməsi üçün zəruri nəzəri bilikləri, təcrübi və ixtisas vərdişləri olan və sərbəst (müstəqil) işə buraxılış almış mütəxəssislər tərəfindən yerinə yetirilməlidir.

10.2. Mərkəz üzrə mühəndis-texniki heyətin peşə hazırlığı dedikdə, uçuşların təhlükəsizliyinə dair tələblərin yerinə yetirilməsinə zəmanət verən, texniki vasitələr üçün müəyyən edilmiş texniki xidmət və təmir işlərini peşəkar səviyyədə yerinə yetirə bilən mütəxəssislərin formalaşdırılmasına yönəldilmiş tədbirlər sistemi nəzərdə tutulur.

10.3. Texniki vasitənin istismarı üzrə mühəndis-texniki heyətin hazırlanmasına aşağıdakılar aiddir:

- İlkin təlim ;
- Müvafiq obyektlərdə stajkeçmə.;
- Yerüstü avadanlığın müəyyən olunmuş növü üzrə personalın yenidən hazırlanması.

10.4. Mühəndis-texniki heyətin konkret obyektlər üzrə sərbəst işə buraxılması bütün hallarda (təhsil müəssisəsini və ya xüsusi hazırlıq kursunu bitirib işə götürüldükdən sonra, yenidən işə götürülərkən, bir müəssisə və ya obyektdən digərinə keçirilərkən) stajlamadan sonra olmalıdır.

10.5. Mühəndis-texniki heyətin stajlanmasına instruktorlar təhkim olunmalıdır.

10.6. Mühəndis-texniki heyətin stajlanma müddəti hazırlığın səviyyəsindən asılı olaraq Mərkəz rəhbəri tərəfindən təyin olunur.

10.7. Stajlama təsdiqlənmiş plana əsasən həyata keçirilməlidir.

10.8. Stajlamanın sonunda AXT-nın rəhbəri tərəfindən təsdiq olunmuş ixtisas komissiyası konkret obyekt üzrə TX və təmir işlərinə sərbəst (müstəqil) buraxılış imkanlarını təyin etmək məqsədi ilə stajlananın biliyini və təcrübi vərdişlərini yoxlayır. Bilik yoxlamasının nəticələri ixtisas komissiyasının iclasının protokolu ilə tərtib olunur və konkret obyekt üzrə TX və təmir işlərinə sərbəst (müstəqil) buraxılış sənədləşdirilir, habelə həmin işin aid olduğu zərərli (təhlükəli) istehsalat amili orada qeyd olunur.

10.9. Mühəndis-texniki heyətin konkret obyekt üzrə TX və təmir işlərinə sərbəst (müstəqil) işə buraxılışı AXT rəhbərinin əmri ilə həyata keçirilir.

10.10. İşdəki fasilə 30 gündən çox olduqda, mütəxəssis iş yerində stajlamadan keçməyə borcludur. Stajlama qurtardıqdan sonra obyektin rəhbəri bu haqda obyektin operativ iş jurnalında qeydiyyat aparır.

10.11. Məqbulları (imtahanları) verə bilməyən və ya texniki vasitələrin TX və təmiri üzrə sərbəst işlərdən texniki istismar, əməyin mühafizəsi və yanğından mühafizə qaydalarını kobud surətdə pozduğuna görə kənarlaşdırılan işçilərin biliyi təkrar yoxlanılır.

10.12. Texniki vasitələrin TX və təmiri üzrə işlərə sərbəst buraxılış alan Mərkəz və xidmətin mühəndis-texniki heyəti ildə bir dəfə Azərbaycan Respublikasında MA üzrə rəhbər sənədlərin,material hissənin, əməyin mühafizəsi və yanğından mühafizə qaydalarının tələblərinə dair biliyin yoxlanılmasından keçməlidirlər.

10.13. Yeni növ texniki vasitə istismara verildikdə obyektlərdə həmin vasitənin öyrənilməsi üzrə mühəndis-texniki heyət üçün məşğələlər təşkil olunmalıdır.

10.14. RTAR və HHAİS Mərkəzinin rəhbər və mühəndis-texniki heyəti 3 (üç) ildən bir sertifikatlaşdırılmış tədris müəssisələrində Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən təsdiqlənmiş proqrama əsasən ixtisasartırma kurslarını kecməlidir.

10.15. RTAR və HHAİS Mərkəzinin rəhbər və mühəndis-texniki heyətinin vəzifə borcları, hüquq və məsuliyyətləri müvafiq vəzifə təlimatları ilə müəyyənləşdirilməlidir.

11 RTAR VƏ HHAİS OBYEKTLƏRİNİN MATERİAL-TEXNİKİ TƏCHİZATI

11.1 RTAR və HHAİS Mərkəzi üzrə Texniki İstismarın Material-Texniki Təchizatının Təşkil Olunması

11.1.1 Mərkəz üzrə texniki istismarın material-texniki təminatı AXT-nın obyektlərində:

- Boşdayanmaların qarşısının alınması;
- TX texnologiyasının pozulmasına imkan verilməməsi;
- Tələb olunan dəstləşdirici hissələrin, alətlərin və məsrəf materiallarının olmaması səbəbindən ehtiyat elektrik qida mənbələrinin hazırlığının təmin edilməməsinin qarşısını almaq məqsədi ilə təşkil edilir;

11.1.2 Bütün obyektlər lazımi ehtiyat hissələr ilə təmin olunmalıdır.

11.1.3 Obyektlərin material-texniki təminatı üçün məsuliyyət AXT rəhbərliyinin üzərinə düşür.

11.1.4 AXT-da texniki istismarın material-texniki təminatına dair işlərin təşkil olunması üçün qaydalar müəyyənləşdirilir. Ehtiyat hissələrə, alətlərə, dəstləşdirici (tamlaşdırıcı) və məsrəf materiallarına olan tələbnamələr obyekt rəhbərləri (və ya aparıcı mütəxəssislər) tərəfindən vaxtlı-vaxtında hazırlanır.

11.1.5 Texniki vasitələrin yerdəyişməsi RTAR və HHAİS Mərkəzi rəhbərinin göstərişinə əsasən yerinə yetirilir və bu barədə texniki vasitələrin mövcudluğu və yerdəyişməsinə dair jurnalda müvafiq qeydiyyat aparılır.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

12 RTAR VƏ HHAİS OBYEKTLƏRİNDƏ ƏMƏYİN MÜHAFİZƏSİ

12.1. Obyektlərdə təhlükəsiz və sağlam iş şəraiti yaradılmalıdır. Bu məqsədlə də mühəndis-texniki heyət arasında istehsalat zədələnmələrinin və peşə xəstəliklərinin xəbərdar edilməsinə yönəldilmiş əməyin mühafizəsinə dair zəruri tədbirlər planlaşdırılır, işlənib-hazırlanır və həyata keçirilir, habelə əməyin mühafizəsinə dair təlimatların, norma və qaydaların yerinə yetirilməsinə daimi nəzarət yerinə yetirilir.

12.2. Əməyin mühafizəsinə dair tədbirlər aşağıdakı əsas məsələləri həll etməlidir:

- Texniki vasitələrin, texnoloji avadanlığın, bina və tikililərin təhlükəsiz istismarının təmin olunması;
- Texnoloji proseslərin təhlükəsizliyinin təmin olunması;
- Əməyin sanitar-gigiyenik şəraitinin normalaşdırılması;
- Mühəndis-texniki heyət arasında əməyin təhlükəsizliyinə dair tədris və əməyin mühafizəsinə dair təbliğatın aparılması;
- Mühəndis-texniki heyət fərdi mühafizə vasitələri ilə təmin olunması;
- Əməyin və istirahətin optimal rejiminin təmin olunması;
- Mühəndis-texniki heyət üçün sanitar-məişət və müalicə-profilaktik xidmətlərin təmin olunması.

12.3. Əməyin mühafizəsinə dair işlər Azərbaycan Respublikasında əməyin mühafizəsinə dair qanunvericiliyə, istehsalatın sahələr arası və istehalat sahələrində qüvvədə olan normativ hüquqi aktlara və əməyin mühafizəsinə dair müvafiq sənədlərin tələblərinə əsasən həyata keçirilir.

12.4. AXT üzrə əmək şəraitinin vəziyyəti və mühafizəsi üzrə məsuliyyət həmin idarə rəhbərinin üzərinə düşür.

AXT rəhbəri bu sahə üzrə aşağıdakıları yerinə yetirir:

- Əməyin mühafizəsi üzrə işlərin təşkil olunması üçün rəhbərliyi həyata keçirir. Bu məqsədlər üçün maliyyə vəsaiti ayırır, əməyin mühafizəsinə dair işlərin nəticələrinə əsasən vəzifəli şəxsləri mükafatlandırır və ya inzibati qaydada tənbeh edir;
- AXT üzrə təhlükəsiz və sağlam əmək şəraitinin təmin olunmasına dair normativ-göstəriş verici sənədləri və Əməyin mühafizəsinə dair təlimatları təsdiqləyir.

12.5. AXT üzrə əməyin mühafizəsinə dair işlərin təşkili və həyata keçirilməsi AXT rəhbəri tərəfindən təyin olunmuş əməyin mühafizəsi üzrə mühəndisə həvalə olunur.

12.6. Əməyin mühafizəsi üzrə mühəndis aşağıdakıları yerinə yetirir:

- Rəhbər və mühəndis-texniki işçilərin əməyin mühafizəsinə dair tədrisini, biliyin yoxlanılmasını və əməyin mühafizəsinə dair normativ sənədlərin tələblərinin yerinə yetirilməsinə nəzarəti təşkil edir və təmin edir;
- İstehsalatda baş vermiş hər bir bədbəxt hadisənin və peşə xəstəliyinin təhqiqatının aparılmasını və əməyin mühafizəsinə dair statistik hesabatların vaxtlı-vaxtında AXT rəhbərinə təqdim olunmasını təmin edir;

- Əməyin mühafizəsinə dair işlərin təşkil və təmin olunmasına rəhbərlik edir, bu işlərin müəyyən olunmuş tələblərə uyğunluğunu təşkil və təmin edir (bu funksiyanın AXT rəhbərinin müavinlərindən birinə həvalə olunması da mümkündür);
- Tibbi baxışın keçirilməsini təşkil və təmin edir.

12.7. Mərkəz və xidmətlərin obyektlərində əməyin təhlükəsiz iş şəraitinin təşkil olunması üçün məsuliyyəti RTAR və HHAİS Mərkəzinin rəhbəri daşıyır.

12.8. Obyekt və qruplarda əməyin mühafizəsi və əmək şəraitinin vəziyyətinə görə məsuliyyəti həmin qurumların rəhbərləri daşıyırlar.

12.9. Mərkəz və xidmətlərində bölmə (obyekt və qrup) rəhbəri:

- Bölmədə əməyin mühafizəsinə dair işləri təşkil edir, əməyin mühafizəsinə dair normativ hüquqi aktları yerinə yetirir və əməyin təhlükəsizliyinə dair tələblərə riayət edir;
- Əməyin mühafizəsinə dair təlimatları işləyib-hazırlayır və təsdiqə təqdim edir, əməyin təhlükəsizliyinə dair tədrisi və təlimatlandırmanı yerinə yetirir;
- Mühəndis-texniki heyətin fərdi mühafizə vasitəsi ilə təmin olunması üçün tədbirlər görür;
- Əməyin mühafizəsinə dair təlimatların, norma və qaydaların, habelə əmək qanunvericiliyinin tələblərinin yerinə yetirilməsini təşkil və təmin edir;
- İstehsalatda bədbəxt hadisələrin, peşə xəstəliklərinin xəbərdar edilməsi üçün tədbirlər planını işləyib-hazırlayır və həyata keçirir.

12.10. Obyektlərin mühəndis-texniki işçilərinin vəzifə borcudur ki:

- Əməyin mühafizəsinə dair normalara, qaydalara və təlimatlara əməl etsin;
- Kollektiv və fərdi mühafizə vasitələrindən düzgün istifadə etsin;
- İstehsalatda baş vermiş bədbəxt hadisələr, peşə xəstəliklərinin əlamətləri haqqında, habelə adamların həyat və sağlamlığına təhlükə yarandıqda özünün birbaşa rəhbərinə dərhal xəbər versin;
- Bədbəxt hadisə zamanı zərərçəkmişə ilk tibbi yardımı göstərməyi bacarsın;
- Müəyyən edilmiş qaydada vaxtlı-vaxtında tibbi baxışdan keçsin.

12.11. Mərkəz və xidmətlərin rəhbərləri və mühəndis-texniki heyəti müəyyən olunmuş qaydada və müddətdə əməyin mühafizəsinə dair normalar, qaydalar və təlimatlar üzrə biliyin yoxlanılmasından keçməyə borcludurlar.

12.12. Əməyin mühafizəsinə dair normalar, qaydalar və təlimatlar üzrə biliyin yoxlanılmasından keçməyən (keçə bilməyən) rəhbərlər və mühəndis-texniki işçilər işə buraxılmırlar.

12.13. AXT-da yüksək (xüsusi) təhlükəli işlə məşğul olan mühəndis-texniki heyəti yüksək (xüsusi) təhlükəli işdə işləməyə buraxılış verən vəsiqəyə, elektrik qurğularının texniki istismarı üzrə işlər zamanı isə “Elektrik qurğularında istismar qaydaları və təhlükəsizlik texnikası qaydaları” üzrə biliyin yoxlanılmasından keçdiyini və müvafiq ixtisas dərəcəsini təsdiqləyən vəsiqəyə malik olmalıdır.

12.14. Obyektlərin hər bir otağı üçün AXT rəhbərinin əmri ilə elektrik cərəyanının təsirinə məruz qalmağın təhlükəlilik dərəcəsi müəyyən edilməlidir.

12.15. Obyektlərdə otaqların hamısının elektrik cərəyanının təsirinə mərüz qala bilməyin təhlükəlilik dərəcəsinə görə dərəcələnməs AXT rəhbərinin təyin etdiyi komissiya tərəfindən müəyyən edilir. Bu komissiyaya Mərkəz və xidmət rəhbəriləri və ya müavinləri sədrlik edir. Elektrik təhlükəlilik dərəcəsini göstərən cədvəllər və göstərici lövhələr otağın giriş qapısının çol tərəfindən asılır. Bütün obyektlər ilk tibbi yardım üçün aptek qutuları ilə təmin olunmalıdır və həmin aptek qutularının içindəki tibbi vasitələrin mövcudluğu, saxlanma müddəti, saxlanma şəraiti, habelə saxlanıldığı mikroiqlim mütəmadi olaraq bölmələrin (obyektlərin və ya qrupların) rəhbərləri tərəfindən nəzarət yoxlanışlarından keçməlidir. Vaxtı keçmiş və müxtəlif səbəblərdən yararsız hala düşmüş tibbi vasitələr dərhal istifadədən çıxarılmalıdır.

12.16. Obyektlərdə əməyin mühafizəsinə dair normativ hüquqi sənədlər, habelə təşkilati-göstəriş verici sənədlər (əmrlər, göstərişlər, aktlar, planlar, protokollar, təlimatlar və jurnallar), əməyin mühafizəsinə dair hazırlanmış və çap olunmuş normativ hüquqi aktlar olmalıdır.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

13 RTAR VƏ HHAİS OBYEKTLƏRİNDƏ YANĞINDAN MÜHAFİZƏ

13.1. Obyektlərin yanğından mühafizəsi MA-da qüvvədə olan direktiv sənədlərin və Azərbaycan Respublikasında yanğından mühafizə qaydalarının tələblərinə uyğun olaraq AXT-nın gücü və vasitələri ilə təmin edilir.

13.2. Obyektlərdə yanğından mühafizə üçün məsuliyyəti AXT rəhbəri, bölmə rəhbərləri, habelə obyektlərin yanğından mühafizə vəziyyəti üçün məsul olan şəxslər daşıyırlar.

13.3. AXTrəhbəri tərəfindən obyektin yanğından mühafizəsinə dair tədbirlərin siyahısı Mərkəz və xidmətlər üzrə əsas işlərin və tədbirlərin illik planına daxil edilir. Bu planda aşağıdakılar göstərilir:

- Müəssisənin mühəndis-texniki heyətinin yanğın təhlükəsizliyinə dair tədrisi və yanğından mühafizə vasitələrinin istifadə olunması üzrə təcrübi vərdişlərə dair tədbirlər;
- Yanğından mühafizə üzrə təlimatlandırılmanın keçirilmə müddəti;
- Yanğından mühafizə vasitələrinin yoxlanılması və sınaqdan çıxarılmasının müddəti, obyekt və ərazilərin yanğından təhlükəsiz vəziyyətdə saxlanılmasına dair tədbirlər;
- Obyektlərin və otaqların yanğına qarşı davamlılığının artırılmasına yönəldilmiş və onların yanğınsöndürücü, yanğından mühafizə siqnallayıcı vasitələri ilə təminatına dair tədbirlər.

13.4. Obyektlərdə yanğından mühafizəyə dair təlimatlar, adamların təxliyyə (evakuasiya) planı, yanğından mühafizə inventarı ilə təchizat tabelindən çıxarış olmalıdır. Hər bir obyekt ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmalıdır. Yanğından mühafizəyə dair təlimat, adamların və avadanlığın təxliyyə (evakuasiya) planı, yanğından mühafizə inventarı ilə təchizat tabelindən çıxarış gözlə görünən yerdə asılmalıdır.

13.5. Hər obyektdə yanğından mühafizəni təmin etmək üçün məsul şəxslər ayrılır və otağın daxilində onun soyadı və vəzifəsi göstərilən cədvəl asılır.

13.6. İş yerlərində yerli və şəhər yanğınsöndürən dəstələrinin çağırılması ardıcıllığını və telefon nömrəsini göstərən cədvəl asılır.

13.7. Obyektlər yanğından mühafizə siqnallayıcısı və yanğınsöndürmə vasitələri ilə təmin olunmalıdırlar.

13.8. AXT rəhbəri və struktur bölmələrin rəhbərləri, habelə yanğından mühafizə üçün məsul olan şəxslərin borcudur ki:

- Obyektlərdə yanğından mühafizə rejiminin yerinə yetirilməsini təmin etsinlər;
- Yanğın törədə bilən bütün avadanlıqların və cihazların: qızdırıcı cihazların, ventilyasiya, elektrik avadanlıqları və texnoloji avadanlıqların, elektrik işıqlanmasının, yanacaq çənlərinin (tutumlarının) sazlığına diqqət yetirsin və aşkar olunmuş çatışmamazlıqların yubanmadan aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görsün;
- İş yerlərinin və otaqların vaxtlı-vaxtında yığışdırılmasına, işdən sonra elektrik enerjisi ilə işləyən vasitələrin işdən açılmasına diqqət yetirsin;

- Mühafizə və yanğından mühafizə siqnallayıcı vasitələrinin və rabitəsinin işə hazırlıq və saz vəziyyətini təmin etsin;
- Obyektlərdə yanğınsöndürən vasitələrin işə hazır və saz vəziyyətini təmin etsin;
- Nasaz və sınanması vacib olan yanğınsöndürücü vasitələrin vaxtında dəyişdirilməsini yerinə yetirsin;
- Alov törədə bilən və yanğın təhlükəli işlərin yerinə yetirilmə qaydalarını təmin etsin;
- Yanğının baş verdiyi təqdirdə yanğınsöndürən dəstəni çağırsın və onların gəlişini gözləmədən yanğının ləğvinə başlasın;
- Müəyyən edilmiş yanğından mühafizə qaydalarını pozan şəxslərə qarşı müvafiq tədbirlər görsün;
- İldə bir dəfə yanğından mühafizə qaydaları və yanğının baş verdiyi təqdirdə hərəkət ardıcıllığı üzrə biliyin yoxlanılmasını təşkil etsin və bu işləri YYM-ə hazırlıqla əlaqədar işlər planına daxil etsin;
- Yanğın zamanı obyektlərin mühəndis-texniki heyətinin fəaliyyətinə dair məşqlər planlaşdırsın və həyata keçirsin.

13.9. Mərkəz və xidmətlərin mühəndis-texniki heyəti MA-da yanğından mühafizəyə dair Əsasnamənin və yanğından mühafizəyə dair təlimatların tələblərini bilməyə və ciddi surətdə yerinə yetirməyə borcludur, eyni zamanda ilkin yanğınsöndürmə vasitələrindən istifadə etməyi bacarmalıdır.

13.10. Yanğından mühafizəyə dair təlimatlandırılma obyektlərdə yerinə yetirilir və yanğından mühafizəyə dair təlimatlandırılma jurnalında qeyd olunur.

14 RTAR VƏ HHAİS ÜZRƏ XIDMƏT TƏMINATÇISINA NƏZARƏT

14.1 Dövlət Mülki Aviasiya Agentliyi bu qaydalarla müəyyən olunmuş tələblərə riayət olunmasına nəzarəti həyata keçirir.

14.2 Nəzarət aviasiya elektrorabitəsi üzrə orqanın fəaliyyətinin plana uyğun və plandankənar yoxlanılması yolu ilə həyata keçirilir.

14.3 Aşağıdakılar **plandankənar yoxlamanın keçirilməsi üçün əsas ola bilər:**

1. icrası məcburi olan tələblərin pozulmasının aradan qaldırılması barədə dövlət nəzarəti orqanı tərəfindən hüquqi şəxsə, fərdi sahibkara verilmiş göstərişin müddətinin başa çatması;

2. uçuşların təhlükəsizliyini təhdid edən və aviasiya qanunvericiliyi tələblərinin yerinə yetirilməsinə mane olan pozuntu halları barədə dövlət nəzarəti orqanına məlumatın daxil olması;

3. dövlət nəzarəti orqanının rəhbərinin plandankənar yoxlamanın keçirilməsi barədə əmrinin (sərəncamının) olması.

14.4 Aşkar olunmuş uyğunsuzluğun əhəmiyyəti üç səviyyə ilə müəyyən olunur:

1. “I Uyğunsuzluq Səviyyəsi” - əsas tənzimləyici tələblərə uyğunsuzluq;

2. “II Uyğunsuzluq Səviyyəsi” - təşkilati tələblərə və prosedurlara uyğunsuzluq;

3. “III Uyğunsuzluq Səviyyəsi” - uçuşların təhlükəsizliyinə təsir edə biləcək kiçik uyğunsuzluq.

14.5 Auditin nəticələri barədə bildiriş alındıqdan sonra təşkilat islahatedici tədbirlər planını hazırlamalı və DMAA- ilə razılaşdırılmış müddətdə həyata keçirməlidir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

15 İSTİSMAR SƏNƏDLƏRİNİN APARILMASI

15.1 İSTISMAR SƏNƏDLƏRI

Uçuşların və rabitənin radiotexniki təminatı vasitələrinin texniki istismarının təşkili müvafiq istismar sənədləri vasitəsilə təmin olunur.

15.1.1 RTAR VƏ HHAİSİ MƏRKƏZI ÜZRƏ İSTISMAR SƏNƏDLƏRI

RTAR və HHAİSİ Mərkəzi üzrə istismar sənədləri:

1) Azərbaycan Aviasiya Qaydaları;
2) MA-da Aeronaviqasiya təminatı üçün Uçuşların Radiotexniki, Rabitə Təminatına və Hava Hərəkətinin Avtomatlaşdırılmış İdarəetmə Sistemlərinə dair Əsasnamə;
3) ATSEP mütəhəsislərinin peşə hazırlığı barədə Əsasnamə;
4) Hava hərəkətinə xidmət edən obyektlərin,vasitələrin və sistemlərin sertifikatlaşdirma prosedurları;
5) Vəzifə təlimatları;
6) Reqlamentlər və istismar üzrə təlimatlar;
7) RTAR və HHAİSİ Mərkəzinin və onun xidmətlərinin uyğunluq sertifikatları;
8) Radioşüalandırıcı vasitələrin istismarına hüquq verən İcazə;
9) RTAR və HHAİSİ Mərkəzinin aylıq, illik və perspektiv planı;
10) RTAR və HHAİSİ Mərkəzi üzrə işin illik hesabatı;
11) RTAR və HHAİS vasitələrinin istismara qəbul aktı;
12) RTAR və HHAİS Mərkəzi ilə enerji təchizatı təşkilatı arasında obyektin elektrik qurğularının istismarı üzrə əmlakın və məsuliyyətin bölünməsinə dair akt;
13) Yerüstü yoxlamanın və köklənmənin protokolu;
14) RTAR və HHAİS vasitələrinin texniki xidmətinə və uçuşla yoxlanışına dair plan-cədvəl (uçuşla yoxlanışın təşkil olunmasına dair təlimata uyğun olaraq);
15) RTAR və HHAİS yerüstü vasitələrinin uçuşla yoxlanışına dair akt;
16) RTAR və HHAİS yerüstü vasitələrinin texniki vəziyyətinin yoxlanışına dair akt;
17) İmtinaların təhqiqatına dair akt;
18) RTAR və HHAİS Mərkəzi üzrə növbə mühəndisinin iş jurnalı;
19) RTAR və HHAİS Mərkəzinin rabitə və idarəetmə sxemi;
20) RTAR və HHAİS Mərkəzinin elektrik təchizat sxemi;
21) Kabellərin sabit cərəyanla elektriki ölçülmələrinə dair protokol;
22) Mühafizə torpaqlayıcısının ölçülməsinə dair protokol;
23) Elektrik kabellərinin və elektrik naqillərinin izolyasiya qatının müqavimətinin ölçülməsinə dair protokol;
24) Elektromaqnit sahəsinin və enerji seli sıxlığının ölçülməsinə dair protokol;
25) Elektrik təhlükəsizlik qrupu olan mühəndis-texniki heyətin təhlükəsizlik texnikasına dair biliklərinin yoxlanılması jurnalı;

26) Ölçü və nəzarət vasitələrinin qeydiyyat jurnalı;
27) Uyğunluq cədvəli;
28) RTAR və HHAİS vasitələrinin mövcudluğuna və yerdəyişməsinin qeydiyyatına dair jurnal.

15.1.2 RTAR və HHAİS Obyektləri üzrə İstismar Sənədlərinin Siyahısı

RTAR və HHAİS obyektləri üzrə istismar sənədlərinin siyahısı:

1) Obyektlərinin istismara yararlıq sertifikatları;
2) Obyektin UEZ -ə nəzərən yerləşmə planı
3) Obyektin elektrik təchizat sxemi;
4) AFQ-nin qoşulma planı və sxemi (radiorabitə obyektləri üçün);
5) RTAR və HHAİS Mərkəzi üzrə növbə mühəndisinin iş yerində ehtiyatlanmanın normativ vaxt cədvəli (RTAR və HHAİS obyektlərinin ehtiyatlanması);
6) Ehtiyatlanmaya dair təlimatlar;
7) Əməyin mühafizəsi və yanğındanmühafizəyə dair təlimatlar;
8) Adamların və əmlakın təxliyyə (evakuasiya) planı;
9) Vəzifə təlimatları;
10) Obyektin növbətçi mühəndisinin (texnikinin) operativ iş jurnalı;
11) Texniki xidmətin və təmirin illik cədvəli;
12) Obyektin növbətçi işçilərinin işi üzrə işəçıxma cədvəli (növbətçi işçiləri olan obyektlər üçün);
13) Texniki xidmət və təmir jurnalı;
14) Nəzarət rejimləri üçün xəritə və köklənmə cədvəli;
15) Obyektin kross jurnalı (cədvəli);
16) Texniki vasitələr üçün istismar sənədləri(avadanlıq təsviri,istismar təlimatı,texniki xidmət reqlamenti);
17) RTAR və HHAİS vasitələri üçün imtinaların və zədələnmələrin toplayıcı cədvəli;
18) Növbətçi heyəti, sahələri və qrupları olan obyektlər üçün texniki tədris planı;
19) Aeroportdaxili səyyar radiostansiyaların qəbulu, verilməsi və işinin qeydiyyatına dair jurnal;
20) Məlumat daşıyıcıların qeydiyyat jurnalı (yazı və arxivləmə üçün);
21) Abunəçinin kartı (ATS üzrə);
22) ATS-in kross jurnalı;
23) Obyektin mühəndis-texniki heyətinin iş planı;
24) Əməyin mühafizəsi üzrə təlimatın keçirilməsinə dair jurnal;
25) Yanğından mühafizə üzrə təlimatın keçirilməsinə dair jurnal;
26) Obyektin əmlakının və avadanlıqlarının siyahısı;
27) Yanğından mühafizə inventarına dair təchizat tabelindən çıxarış;
28) Təhlükəli hadisələr barədə xəbər aldıqları vaxt mühəndis-texniki heyətin fəaliyyətinə dair təlimat.